

# Rusiya Qarabağ "kartından" yenidən yararlanmağa çalışır

*Məlum olduğu kimi, Azərbaycan 5 erməni diversantı oktyabrın 19-da Ermənistana təhvil verdi. Rusiyanın Qarabağdakı sülhməramlılarının keçmiş rəhbəri Rüstəm Muradov bununla əlaqədar xüsusi missiya ilə Bakıda olub və diversantların İrəvana təhvilində iştirak edib.*

Səh.9


UNİKAL

№39 (2077) 22 oktyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Ramin Bayramlı ilə bağlı yeni sensasion iddia...

## TƏBİB-in keçmiş rəhbəri Qusar rayon Mərkəzi Xəstəxanasının direktorunun əməllərinə niyə göz yumub?

*Yola salmaq üzrə olduğumuz həftə "Qusar rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsin (PHŞ) direktorunun qanunsuz əməlləri barəsində daxil olan məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirildiyi açıqlandı. Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda bildirilib ki, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi "Qusar rayon Mərkəzi Xəstəxanası" PHŞ-in direktoru Zeynalov Mübariz Ağakərim oğlu həmin tibb müəssisəsinin həkim-stomatoloqunun xidməti istifadəsinə veriləcək stomatoloji...*

Səh.8

Səh.2




# Azərbaycan Ermənistana qarşı beynəlxalq səviyyədə bu iddiaları qaldırdı

## "Radikal müxalifət, anti-milli qüvvələr heç vaxt xalqı fikirləşməyiblər"



*Tarif Şurasının təbii qazın və elektrik enerjisinin qiymətini qaldırması ilə bağlı qərarı hələ də müzakirə olunur. Belə ki, hökumət və hökumətin siyasətini dəstəkləyənlər bu dəyişikliyin elə də ağır olmadığını söyləsələr də, bu bahalaşmanın ciddi fəsadlar yaradacağını iddia edənlər də var.*

Səh.4

## "Düzgün seçki keçirilmədən o vəsaitlər bura axmayacaq" - İlqar Məmmədov



*"Bu gün keçirilən format inkişaf etdirilməlidir". Unikal.org-un məlumatına görə, bunu Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri İlqar Məmmədov Yeni Azərbaycan Partiyasında "Vətən Müharibəsi: "Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi" mövzusunda keçirilən dəyirmi masada deyib.*

Səh.5

## Üçüncü dozanı vurduranın kovid pasportu müddətsiz olacaq - Tabib rəsmisi



*İmmunitet sertifikatının etibarlılıq müddəti altı aydır. Həmin müddət bitəndən sonra vətəndaşlara tövsiyə edirik ki, COVID-19 əleyhinə gücləndirici doza vurdursun. Bu zaman bir doza ilə immunitet sertifikatının müddəti müddətsiz olaraq uzanır, həmçinin onun immunitet sertifikatında buster doza deyə bir yazı əmələ gəlir.*

Səh.6

# “Qardaşım yanlış vurulmuş iynədən öldü” - Pərvin



***Aktrisa Pərvin Abıyeva illər əvvəl yaşadığı qardaş itkisindən danışıb.***

“Unikal” ”Qafqazinfo”ya istinadən xəbər verir ki, bunu o, ilk dəfə ”Özəl” verilişində etiraf edib. Abıyeva qardaşının həkim məsuliyyətsizliyi, yanlış vurulmuş iynədən həyatını itirdiyini deyib:

”Ailədə ortancılam. Məndən böyük bir bacım, özümdən altı yaş balaca bir qardaşım var. Bacımdan öncə rəhmətə getmiş bir qardaşım olub. Anam həmişə deyirdi ki, ona çox oxşayırsan”.

Aktrisa ikinci, üçüncü sinfə qədər saçının qısa olduğunu bildirib:

”Anam məni oğlan kimi böyüdürdü. Bir növ məndə onu görürdü. Anam saçımı özü kəsirdi. Elə bil o saç məni oğlan kimi böyüməyə məcbur edib. Mənim uşaqlığımı xatırlayan insan indi məni görəndə şoka düşür ki, sən oğlan uşağı olmusan”.

# "50 manata şou-proqramda oxuyur, kredita görə evini satıb" - Əməkdar Artist





***Xəbər verdiyimiz kimi, Əməkdar artist Firuzə İbadova evinin şəraitsiz olmasından gileylənib.***

“Unikal” axşam.az-a istinadən xəbər verir ki, əməkdar artist Aybəniz Haşımova onla bağlı paylaşım edərək, həmkarının imkansızlığı ilə bağlı bəzi məqamlara toxunub. O bildirib ki, İbadova şou-proqramlarda 50 manata oxuyur:

”Mən onu tanıyanda o artıq ulduz idi. Mənim üçün bu gün də ulduzdur. Onu dinləmək üçün insanlar ciblərindəki son pulu verib bilet alıb konsertinə gəlirdilər. Onun çıxış etdiyi konsertlərinin dəfələrlə şahidi olub, pərdə kənarında onu dinləyədinləyə öyrənmişəm.

Onun ehtiyacı olmasa da, Şövkət Ələkbərovaya olan sevgisindən gedib onun sinfində dərs aldı. Təqvimdə elə bir gün yox idi ki, o, konsertlə tamaşaçı qarşısına çıxmasın: stadion, tarla, kolxoz deməzdi... Firuzə xanımın tədbirlərdə necə şövqlə gözəl keçməsi üçün çıxış etməsinin şahidi olmuşam.

Qırmızı hərflərlə yazılan müğənnilər siyahısında idi, müqabilində isə Firuzə İbadova ayda bir dəfə maaş alardı. O da digər sənətkarlar kimi xalqın qarşısında olan saysız çıxışlarının sonunu bugünkü kimi deyil, çox böyük sevgi, diqqətlə ödənilcəyini, təminini düşünürdü. Məcburiyyətdən, çörəkpulu üçün toylarda, şou-proqramlarda 50 manata oxuyur. Bayıl qəsəbəsində olan 1 otaqlı evini satıb, kreditini ödəyib”.



# “Söyülməyən müğənni yoxdur” - Manaf Ağayev

***Müğənni Manaf Ağayev sosial şəbəkədə ona yazılan qarğışdan danışıb.***

“Unikal” Axşam.az-a istinadən xəbər verir ki, sənətçi ”Həmin Zaur” proqramında hava limanında başına gələn hadisənin ona pis təsir etdiyini deyib:

”Sənət dostlarımla hava limanında görüşdük, başqa şəhərlərə toya gedirik. Şəkil çəkdirib paylaşmaq istədim. Mirələm (Mirələm Mirələmov xanəndə - red.) dedi ki, paylaşmayaq. Qusaq asmadım, ağıllı imiş. Bir az keçdi Mirələm bir şey atdı: biri yazmışdı ki, heç sağ-salamat qayıtmayın. Əlimi bilirsiz harada üzdüm? Zöhrə Abdullayevanın oğlu öləndə biri yazmışdı ki, yaxşı oldu öldü, sənə bu da azdı, çox özündən deyirdin. Ağbirçək arvad idi, nə etmişdi? İndi biz getmişik, deyir, sağ qayıtmayın. Buna nə deyim? Çox aqresivdilər. Heç acından öləndə ağlamadım. Öz problemimi özüm yaşıyıram. 1 il 6 ay toy olmadı, siz nə bilirsiniz nə yaşadım? Bütün nəsil üstümdə idi. Bu gün hamıya elə şərh yazılır. Söyülməyən müğənni yoxdur. İçlərində şükürlüsü mənəm”.

# Tünzalə Ağayeva: Həyatıma girən insanlara...




***45 yaşımın gözəlliyini, keyfini çıxarmağımı, dolu yaşamağı diləyirəm özümə, bu il iki yubileyimi qeyd edirəm: səhnəmin 20 ilini və 45 yaşımı. Həyat və sənət yolum olduqca parlaq, rəngarəng və bəhrəlidir.***

“Unikal” xəbər verir ki, bu sözləri Xalq artisti Tünzalə Ağayeva sosial şəbəkədə yazıb. Doğum günü barədə fikirlərini izləyiciləri ilə bölüşən sənətçi dinləyicilərinə təşəkkür edib:

”Bunlar Allahın lütfü və mərhəmətidir, yaşadığım və rast gəldiyim bütün hadisə və imtahanlara minnətdaram, həyatıma girən ”pis, neqativ” adlandırdığım insan və hadisələrə də ayrıca sağolum var - çünki sonunda dərslərimdən 5 almışam. Ailəmə, sevənlərimə həmişə minnətdaram, sevməyənlər də sağ olsunlar - motivasiyamın artmasına səbəb olduqları üçün”.

# "Fanatım məni bıçaqlamışdı" - Niyaməddin Musayev



***Xalq artisti Niyaməddin Musayev özü ilə bağlı maraqlı etiraf edib.***

“Unikal” xəbər verir ki, müğənni ”Həmin Zaur” verilişində pərəstişkarının onu bıçaqladığını deyib. ”Hadisə 1986-cı ildə Gəncədə olub. Bıçağı gülün içində gizlədibmiş. Evində mənim kasetlərim, fotolarım var idi” - deyə, N.Musayev söyləyib.



## Qarabağdakı erməni hərbi birləşmələri tərksilah ediləcək

***Qarabağda - rusiyalı sülhməramlı qüvvələrin müvəqqəti nəzarəti altında olan Azərbaycan ərazisində yerləşmiş erməni hərbi birləşmələri tərksilah ediləcək.***

"Unikal" Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu barədə erməni QHT sədri Aşot Arutunyan Ermənistan parlamentində keçirilən tədbirdə deyib. O, məlumatın Qarabağdakı terrorçu-separatçıların rəhbəri Arayik Arutunyan tərəfindən ona şəxsən deyildiyini vurğulayıb.

"Arayik Arutunyan Qarabağdakı silahlı birləşmələrin buraxılacağını dedi. Soruşdum ki, "sənə bu haqqı kim verib?". O isə cavabında "azərbaycanlılar bunu tələb edir",-deyə cavab verdi".

Aşot Arutunyan hərbi birləşmələrin tərksilah olunmasına yaxın günlərdə başlanıla biləcəyini də sözlərinə əlavə edib.

Qeyd edək ki, rusiyalı sülhməramlı qüvvələrin müvəqqəti nəzarəti altında olan Azərbaycan ərazisində erməni terror-separatçı hərbi birləşmələri də yerləşir.

Ötən il noyabrın 10-da Azərbaycan və Ermənistan Rusiyanın vasitəçiliyi ilə atəşkəs razılaşması imzalayıb. Sənədə əsasən, 44 gün davam edən hərbi əməliyyatlar dayanıb, Laçın dəhlizi və qoşunların təmas xəttinə isə Rusiya hərbçiləri yerləşdirilib.

Üçtərəfli razılaşmaya əsasən, Qarabağdakı erməni silahlı birləşmələri oradan çıxarılmalıdır.

## Vətən Müharibəsi Qəhrəmanın xatirəsi anılıb

***"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı və "Media Türk" TV-nin dəstəyi ilə Azərbaycan İqtisad Universitetində "Vətən Müharibəsi Qəhrəmanı" şəhid polkovnik-leytenant Anar Əliyevin xatirəsinə həsr olunmuş "Ölməz Qəhrəmanlar" adlı tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə "Media Türk" TV-nin qəhrəmanımız haqqında hazırladığı videoçarx yayınlanıb.

Tədbirin moderatoru "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc xanım Alızadə çıxış edərək Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın daim təbliğ edilməsinin, hər bir şəhidin qəhrəmanlıq salnaməsinin öyrənilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan İqtisad Universitetinin prorektoru dosent Şaiq Əsgərov bu cür anım tədbirlərinin tələbələr arasında keçirilməsinin əhəmiyyətini və vacibliyini vurğulayıb.

Millət Vəkili Fatma xanım Yıldırım çıxış edərək qeyd etdi ki, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olan qəhrəmanlarımızın xatirəsi daim xalqımızın qəlbində əbədi yaşayacaq, gənc nəslimizə örənək olacaqdır.

Tədbirdə son olaraq şəhid komandir polkovnik-leytenant Anar Əliyevin ailə üzvləri öz hislərini bildirmiş, qəhrəmanlıq zirvəsinə ucalmış bir hərbçinin əmanətləri olmaqdan qürur duyduqlarını ifadə etmiş, gənclərimizə şəhidlərimizin xatirəsini uca tutmağı tövsiyə etmişlər.

# Ramin Bayramlı ilə bağlı yeni sensasion iddia...

## TƏBİB-in keçmiş rəhbəri Qusar rayon Mərkəzi Xəstəxanasının direktorunun əməllərinə niyə göz yumub?

***Yola salmaq üzrə olduğumuz həftə "Qusar rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsin (PHŞ) direktorunun qanunsuz əməlləri barəsində daxil olan məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirildiyi açıqlandı.***



Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən verilən məlumatda bildirilib ki, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi "Qusar rayon Mərkəzi Xəstəxanası" PHŞ-in direktoru Zeynalov Mübariz Ağakərim oğlu həmin tibb müəssisəsinin həkim-stomatoloqunun xidməti istifadəsinə veriləcək stomatoloji qurğunun adının xəstəxana tərəfindən büdcə vəsaiti hesabına alınacaq avadanlıqların siyahısına salınmaqla ona təqdim edilməsi müqabilində sonuncudan rüşvət qismində istədiyi 2.000 manat pul vəsaitinin 1.000 manatını alıb. Keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə Mübariz Zeynalov tələb etdiyi rüşvətin qalan 1.000 manat məbləğini 19.10.2021-ci il tarixdə xəstəxanadakı xidməti otağında rüşvət qismində alarkən cinayət başında yaxalanıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.1-ci (rüşvət alma) maddələri ilə cinayət işi başlanaraq, Mübariz Zeynalov şübhəli şəxs qismində tutulub. Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

Mövzu ilə bağlı "Unikal"ın araşdırması zamanı ortaya maraqlı faktlar çıxıb. Məlum olub ki, hələ bu ilin yanvarında Qusar rayon prokurorluğuna daxil olmuş vətəndaş müraciəti əsasında aparılan araşdırma zamanı rayon mərkəzi xəstəxanasının direktoru Mübariz Zeynalov, inzibati məsələlər üzrə direktor müavini Nəzakət Salmanova və maliyyə şöbəsinin müdiri Eldar Məhsimovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək qulluq mövqeyinə qəsdən zidd olaraq xəstəxananın Təxirəsalınmaz Tibbi Yardım bölməsinin bir neçə əməkdaşına "COVİD-19" pandemiyası ilə bağlı mübarizə tədbirlərinə cəlb edilmələrinə görə ödənilməli olan müddətli əlavələri mənimsəmələrinə əsaslı şübhələr müəyyənləşdirilib. Faktla bağlı Qusar rayon prokurorluğunda Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanılıb. Lakin sonradan həmin cinayət işi ilə bağlı hər hansı yenilik barədə məlumat verilməyib.

Bu da maraqlıdır ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sabiq rəhbəri Ramin Bayramlı sözügedən hadisədən sonra belə M.Zeynalovu vəzifəsindən kənarlaşdırmaq ehtiyacı hiss eləməyib. Halbuki həmin vaxtadək də direktorun qanunsuz əməlləri barədə KİV-də şikayət və ittiham xarakterli çox sayda material yayılıb. Bu materiallara laqeyd yanaşan TƏBİB-in sabiq sədri, bir növ, M.Zeynalovun özbaşınalıqlarına göz yumub.

"Qusar rayon Mərkəzi Xəstəxanası" PHŞ-in direktoru ilə bağlı ən qalmaqallı hadisə isə iki il öncə yaşanıb. Belə ki, 2019-cu ildə Bakı Ağır Cinayətlər Məhkəməsində hədə-qorxu ilə pul tələb etməkdə ittiham edilən Rövşən Əliyev, Hətəmxan Çobanov və Elxan Hümbətovun cinayət işi üzrə məhkəmə araşdırması keçirilib. Həmin işdə zərərçəkmiş şəxslərdən biri isə Mübariz Zeynalov olub. Aydınlaşıb ki, o, Qusardan Sumqayıta baş həkim təyin edilməsi üçün 125 min manat rüşvət verib. Üstəlik, 1900 manat dəyərində də telefon alıb. Lakin sonralar TƏBİB rəhbərliyi bir rayon mərkəzi xəstəxanasının direktorunda bu qədər pulun hardan olduğunu araşdırmaq ehtiyacı da hiss eləməyib.

Bir sözlə, deyilənlərdən belə güman edilir ki, M.Zeynalov vəzifədə olduğu müddətdə Ramin Bayramlının dəstəyinə arxayın olub nə rüşvət almaqdan, nə də müxtəlif korrupsiya əməliyyatlarına qol qoymaqdan çəkinib, ya da TƏBİB-in sabiq rəhbəri hansısa səbəb (yaxud səbəblərdən!) bütün bu baş verənlərə göz yumub.

Belə düşünənlərin haqlı ola biləcəyi ehtimalını qüvvətləndirən məqam da var. Məsələ burasındadır ki, R.Bayramlı ayyarım öncə TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsindən istefa verdi. M.Zeynalovun da məhz bundan sonra həbsi düşündürücüdür. Son iki ildə barəsində çoxsaylı ittihamlar, korrupsiya faktları ortaya çıxan xəstəxana direktorunun TƏBİB-dəki rəhbər dəyişikliyindən sonra, üstəlik, elə cinayət başındaca tutulması, doğrudanmı, təsadüfdür?!

***Toğrul Əliyev***

# Agentliklə Fond arasında memorandum

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ilə "YAŞAT" Fondu arasında əməkdaşlığa dair Memorandum imzalanıb.***



"Unikal" xəbər verir ki, əməkdaşlıq sənədini Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Anar Bayramov və "YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov imzalayıb.

Tədbirdə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun möhtəşəm tarixi Zəfərlə başa vurduğu Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərimizlə bağlı həyata keçirilən geniş miqyaslı dəstək tədbirlərindən bəhs olunub. Bu tədbirlərin bir istiqamətinin də qazilərimizin reabilitasiya xidmətləri və vasitələri ilə təminatı olduğu vurğulanıb.

İmzalanan əməkdaşlıq sənədinin də Vətən müharibəsində yaralanmış qazilərin reabilitasiya xidmətləri və vasitələri ilə təmin edilməsi, ümumən onların ehtiyaclarına uyğun digər tədbirlərin görülməsi sahəsində iki qurum tərəfindən birgə fəaliyyətin həyata keçirilməsinin nəzərdə tutulduğu qeyd edilib.

Memoranduma əsasən, tərəflər Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, habelə müharibədə yaralanmış və əlilliyi müəyyən edilməmiş şəxslərin aidiyyəti üzrə tibb müəssisələrinə yönləndirilməsi və reabilitasiya xidmətləri ilə təmin olunması istiqamətində əməkdaşlıq edəcək.

Qarşılıqlı zəruri məlumatların ötürülməsi təmin ediləcək. "YAŞAT" Fondu tərəfindən Agentliyə yönləndiriləcək Vətən müharibəsi iştirakçılarının reabilitasiya vasitələri ilə təminatı həyata keçiriləcək.

# Rusiya Qarabağ "kartından" yenidən yararlanmağa çalışır

## Kreml Azərbaycanla Ermənistan arasında əsas vasitəçi funksiyasını heç kimlə bölüşmək istəmir

***Məlum olduğu kimi, Azərbaycan 5 erməni diversantı oktyabrın 19-da Ermənistana təhvil verdi. Rusiyanın Qarabağdakı sülhməramlılarının keçmiş rəhbəri Rüstəm Muradov bununla əlaqədar xüsusi missiya ilə Bakıda olub və diversantların İrəvana təhvilində iştirak edib.***

Əslində, bu proses baş tutandan sonra müxtəlif fikirlər səslənməkdədir. Azərbaycan Ermənistana təhvil verdiyi diversantların qarşılığında nə əldə edəcək? Diversantların təhvil-təslim prosesində niyə sülhməramlıların keçmiş rəhbəri Rüstəm Muradov iştirak edib?



Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, rəsmi Bakı zaman-zaman diversantları Ermənistana təhvil verməklə İrəvandan qarşılıqlı addımların atılacağını gözləyib. Onun sözlərinə görə, Ermənistan hakimiyyəti Azərbaycana minalanmış ərazilərin xəritələrini təqdim edib: "Ancaq Prezident İlham Əliyevin dəfələrlə təkrarladığı kimi xəritələr dəqiq deyil. Əslində Azərbaycan bu xəritələr olmadan da minaların təmizlənməsini sürətləndirib. Azərbaycan bu çalışmaları dost dövlətlər və əməkdaşlıq etdiyi xarici şirkətlərlə birgə həyata keçirir. Ona görə də İrəvan təhvil aldığı diversantların əvəzinə daha tutarlı addımlar atmalıdır. Birincisi, rəsmi İrəvan Birinci Qarabağ müharibəsi zamanı itkin düşən azərbaycanlıların taleyinə aydınlıq gətirməlidir. Onların sayı minlərlədir. Həmin azərbaycanlılar əsirlikdə qətlə yetiriliblərsə, bu məsələyə də aydınlıq gətirilməlidir. Ermənistanda bu mövzuda nə diskussiya var, nə də etiraf. Misal üçün Azərbaycanda erməni diversantların gələcək taleyi müzakirə predmetidir, Ermənistanda isə Birinci Qarabağ müharibəsindən sonra əsirlikdə saxlanılan azərbaycanlılar barədə danışan yoxdur. Digər tərəfdən rəsmi Bakı İrəvandan sülh sazişi, sərhədlərin müəyyənləşməsi və dəhlizlə bağlı konkret addımlar gözləyir. Bu istiqamətdə də irəliləyiş yoxdur. Ermənilərin bir qismi sadəcə, Azərbaycan sərhədçilərinin Ermənistanla sərhəddə strateji yüksəklikləri nəzarətə götürdüyünü bildiriblər. Ancaq bu İrəvanın güzəşti deyil. Azərbaycan özünə aid olana yiyələnir.

Erməni diversantların hissə-hissə təhvil verilməsi baş nazir Nikol Paşinyanın müxalifətlə mübarizədə mövqelərini gücləndirir. Paşinyan Bakının bu jestini anlamamış deyil. Bundan başqa İkinci Qarabağ müharibəsindən sonra Bakıda açılan hərbi qənimətlər parkı erməniləri çox narazı salmışdı, oradakı dəbilqələr və erməni hərbçilərin maketləri İrəvanda müzakirə predmeti idi. Ermənistan rəsmiləri və diplomatları bu məsələni daima beynəlxalq təşkilatlar qarşısında qaldırırdılar. Həmin dəbilqələrin və maketlərin yığışdırıldığına dair xəbərlər yayılıb. Bu olubsa, bu da güzəştdir. Ancaq güzəştlərin limiti olmalıdır. Qarşı tərəf hərəkət etməsə bundan sonra güzəştə getməyin mənası qalmayacaq".

Maraqlıdır, bəs vəzifəsini başqasına təhvil verən Rüstəm Muradov niyə hələ də Azərbaycanla Ermənistan arasında vasitəçidir?

E.Şahinoğlu hesab edir ki, əslində, Azərbaycan Rüstəm Muradovun fəaliyyətindən narazı idi: "Məhz Rüstəm Muradovun dövründə Qarabağda rusiyalı sülhməramlıların iştirakı ilə təxribatların sayı artmışdı. Buna baxmayaraq, Bakı və İrəvan ilk dəfə məhz Rüstəm Muradovun vasitəçiliyi ilə diversantların təhvil-təslim prosesinə başlamışdılar. Bu proses davam etdiyindən Rüstəm Muradova ehtiyac yaranıb. Rusiya Azərbaycanla Ermənistan arasında əsas vasitəçi funksiyasını heç kimlə bölüşmək istəmir. Rusiyanın üstünlüyü odur ki, həm Azərbaycan, həm də Ermənistan hakimiyyəti ilə sıx təmasları var. Halbuki, rəsmi Bakı son zamanlar Gürcüstanın və Avropa İttifaqının vasitəçilik təşəbbüslərinə də dəstək verir. Ancaq bu məsələdə rəsmi İrəvan sərbəst qərar vermək imkanına malik deyil".

"Zəngəzurun Qafan rayonu istiqamətində olan bəzi ərazilərin artıq ordumuzun nəzarətinə keçməsi dəqiq məlumatdır. Ora dağlıq bölgə olduğu üçün hazırda konkret sərhəd görünmür, amma ordumuzun nəzarətinə keçən ərazilər tam olaraq Laçın istiqamətindədir".

Bu sözləri "Unikal"a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev 5 erməni terrorçunun qarşı tərəfə geri qaytarılmasına münasibət bildirərkən deyib. Ekspert onu da qeyd edib ki, sözügedən hadisə Azərbaycanın Türkiyə ilə Laçında keçirdiyi hərbi təlimlərdən dərhal sonra baş verib: "Bu da sentyabrın 11-12-nə təsadüf edir. Onu da deyim ki, bu, Azərbaycanın həmin istiqamətdə nəzarətə götürdüyü ikinci ərazidir. Hazırda sərhədlərin delimitasiyası prosesi gedir. Biz də yavaş-yavaş cinayət törədən erməniləri təhvil veririk. Əslində, onların hamısı qayıdacaq. Burda bizə erməni yedizdirmək lazım deyil. Bir ermənini saxlamaq üçün neçə nəzarətçi qoyulur, ayrı kamera, ayrı yemək və s. Bu da əlavə xərc və problemlər yaradır".

***Z.Məmmədli***

# Azərbaycan və Qazaxıstan arasında memorandum

***Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Baş icraçı direktoru Ruslan Əlixanovun başçılıq etdiyi nümayəndə heyəti 21-22 oktyabr tarixində Qazaxıstana işgüzar səfəri zamanı ölkənin milli sərvət fondu "Samruk-Kazyna"nın idarə heyəti ilə görüşüb. "Samruk-Kazyna"nın baş qərargahında keçirilən görüşlərdə tərəflər nəqliyyat-tranzit, enerji, infrastruktur və digər sahələr üzrə müzakirələr aparmış, eləcə də hər iki ölkənin sənayeləşməsi və əhalinin rifahını yaxşılaşdırılması istiqamətində həmkarları ilə müxtəlif strategiyaları müzakirə edib, təcrübə mübadiləsi aparıb.***

Holdinqdən "Unikal"a verilən məlumata görə, müzakirələrin davamı olaraq AİH və "Samruk-Kazyna"nın rəhbərləri tərəfindən qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinə təkan verəcək Əməkdaşlıq Memorandumu imzalanıb.

AİH-in baş icraçı direktoru Ruslan Əlixanov sənədlə bağlı qeyd edib: "Bu sənəd tərəflər üçün yeni bir başlanğıcdır və ölkələrimiz arasında onsuz da sıx olan əlaqələrin daha sıxlaşmasında mühüm rol oynayacaq. Əminəm ki, qarşılıqlı səylərimiz gələcəkdə həm AİH, həm də "Samruk-Kazyna"nın səmərəli nəticələr əldə etməsinə töhfə verəcəkdir."

Əməkdaşlıq Memorandumunun imzalanması ilə bağlı fikirlərini bildirən "Samruk-Kazyna"nın baş icraçı direktoru Almassadam Satkaliyev qeyd edib: "Bundan sonra əməkdaşlığımız daha da güclənəcək, dərinləşəcək və daha geniş inkişaf edəcəkdir. Bu gün imzaladığımız Əməkdaşlıq Memorandumu hər iki təşkilat arasında keyfiyyətcə yeni bir səviyyədə əməkdaşlığa başlamağa imkan verir və eləcə də ölkələrimizin iqtisadi potensialının artmasına xidmət edəcəkdir."

Səfər proqramı çərçivəsində AİH nümayəndə heyəti, eyni zamanda Qazaxıstan Respublikasının əsas qurumlarından biri olan Bayterek Milli İdarəetmə Holdinqinin rəhbərliyi ilə də görüş keçirib, bank və maliyyə sektorlarında potensial əməkdaşlıq ətrafında müzakirələr aparıb.

"Samruk-Kazyna" SC 2008-ci ildə Qazaxıstan Respublikasının Prezidentinin Fərmanına əsasən yaranıb. Biznes qurumu olan bu fondun əsas missiyası Qazaxıstan Respublikasının rifahını yaxşılaşdırmaq və gələcək nəsillər üçün davamlı gəlirliliyi təmin etməkdir. Fondun idarəetməsinə neft və qaz, nəqliyyat və logistika, eləcə də kimya və nüvə sənayesi üzrə müxtəlif dövlət qurumları daxildir.

# Azərbaycan istədi, İran geri addım atdı - AÇIQLAMA

***Dünən İran tərəfindən Laçın dəhlizindən keçərək Qarabağa yükdaşımalarının qadağan edilməsi barədə qərar verilib. İranın bu qərarına cavab olaraq isə Azərbaycanda saxlanılan iki İran vətəndaşı olan sürücü ölkələrinə qaytarılıb.***

İranın bu qərarı Azərbaycanla bağlı siyasətdə dəyişiklik niyyətini göstərir, yoxsa başqa səbəbələr var?

"Unikal" xəbər verir ki, mövzu ilə bağlı politoloq Cümşüd Nuriyev bakıvaxtı.az-a danışıb: "Əvvəla qeyd edim ki, İranın Laçın dəhlizinə yük maşınlarının buraxılmasını qadağan etməsi heç də xoşməramlı qərar deyil. İran bu günə qədər beynəlxalq hüquq normalarını pozurdu və Azərbaycan tərəfi bu məsələyə xoşməramlı yanaşmışdı. Amma onlar çox ciddi səhvlər buraxandan sonra Azərbaycan onların narkotrafiki ilə bağlı faktlar ortaya qoydu. İran da bu addımı atmağa məcbur oldu. Çünki Laçın dəhlizinə girmək qeyri-qanunidir. Onların növbəti dəfə həbs olunması artıq Rusiyanın marağında olacaqdı. İkincisi, Azərbaycan İranın səhvini başa düşdüyünə görə deyil, İran daxilində Azərbaycan əleyhinə təbliğat aparıldığına görə bunu etdilər. Onlar Azərbaycanın İran vətəndaşı olan türkləri həbs etdiyini deyirdilər. Ona görə də, Azərbaycan həm öz xarici siyasətindəki anlaşılmazlığı aradan qaldırdı, həm də bu məsələlərdə Cənubdakı soydaşlarımızın çətin vəziyyətdə qalmaması üçün çalışdı. Əlavə olaraq, bilirsiniz ki, Azərbaycan öz xarici siyasətində "qonşu dövlətlərlə sıfır problem" strategiyasını qəbul edib. Biz qonşu dövlətlərlə hər hansı problemimizin olmasını istəmirik. Ən böyük problem Ermənistanla idi, onu da Azərbaycan həll etmək üzrədir. Sülh müqaviləsi bağlandıqdan sonra buna da son qoyulacaq. Bu mənada, cənab Prezident də səfərində elan etdi ki, bu, dostluq sərhəddidir. Yəni, bir növ mesaj verdi ki, Azərbaycan ona davranıldığı kimi qarşılıq verəcək. Azərbaycan qısa bir müddətdə İranın tranzit keçən yüklərini ciddi yoxlamağa başladı, nə qədər narkotik ortaya çıxdı. Bundan başqa, İran iqtisadiyyatı çox ciddi ziyan gördü. Yəni, bütün bunların fonunda İran Azərbaycana qarşı olan siyasətini dəyişmək məcburiyyətində qaldı. Çünki bunu Azərbaycan istədi və məcbur etdi".

# Prezident şəhid ailələri ilə bağlı qanuna dəyişiklik etdi



***"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, dəyişikliyə əsasən, qanunun üçüncü maddəsinə bu hissə əlavə edilir:

- sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı onlara üstünlük verilir.

# Yoluxma azaldı, ölü sayı çoxaldı




***Azərbaycanda son sutkada koronavirus (COVID-19) infeksiyasına 2 005 yeni yoluxma faktı qeydə alınıb, 1 011 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 20 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 509 862 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 481 696 nəfər müalicə olunaraq sağalıb, 6 829 nəfər vəfat edib. 21 337 nəfər aktiv xəstə sayını təşkil edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 533, bu günə qədər isə ümumilikdə 5 069 352 test icra olunub.

# "Hazırda 6 hərbçi itkin düşmüş sayılır" - MN



***Müdafiə Nazirliyi Vətən müharibəsində itkin düşmüş şəxslərin yeni siyahısını yayıb.***

"Unikal" xəbər verir ki, oktyabrın 21-dək itkin düşmüş hesab olunan 6 nəfərin foto şəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat təqdim olunub. "İtkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir", - nazirlikdən bildirilib.

# Azərbaycan Ermənistana qarşı beynəlxalq səviyyədə bu iddiaları qaldırdı

***Xarici İşlər Nazirliyi Ermənistana qarşı beynəlxalq səviyyədə hüquqi məsuliyyət tədbirlərinin həyata keçirilməsi ilə bağlı cari vəziyyətə dair məlumat yayıb.***

"Unikal" xəbər verir ki, məlumatda deyilir:"Vətən müharibəsindən sonra Azərbaycan Respublikası 30 ilə yaxın müddət ərzində öz suveren ərazilərinin Ermənistanın qanunsuz hərbi işğalından irəli gələn müxtəlif beynəlxalq hüquq pozuntuları ilə bağlı beynəlxalq məhkəmələrə müraciət edib.

Əvvəlcədən qeyd etmək vacibdir ki, bu faktlara bir beynəlxalq məhkəmədə deyil, bir neçə beynəlxalq məhkəmədə baxılır, çünki bu faktlar bir beynəlxalq konvensiyanın deyil, bir neçə beynəlxalq konvensiyaların pozulmasını əhtiva edir və hər bir konvensiya üzrə xüsusi şikayət etmə proseduru mövcuddur. Hər bir məhkəmə yalnız konkret bir konvensiya çərçivəsində hüquq pozuntularına qiymət verməyə səlahiyyətlidir.

Belə ki, cari ilin yanvar ayında Azərbaycan Respublikası Ermənistana qarşı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə dövlətlərarası şikayət vermişdir. Bu şikayətdə Azərbaycan vətəndaşlarının İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il Konvensiyasında nəzərdə tutulmuş hüquqlarının Ermənistan tərəfindən davamlı şəkildə pozulduğunu sübut edən faktlar təsbit olunub. Şikayətdə həm Birinci Qarabağ müharibəsindən başlayan və davam edən, hərbi işğal dövründə başlayan və davam edən, eyni zamanda Vətən müharibəsi zamanı törədilmiş hüquq pozuntuları öz əksini tapır. Qeyd edilməlidir ki, bu hüquq pozuntularının əksəriyyəti, misal kimi, mülki əhalinin qəsdən hədəfə alınması beynəlxalq cinayət hesab olunur.

Eyni zamanda, Ermənistan da Avropa Məhkəməsində Azərbaycana qarşı bəzi əsasız iddialarla çıxış edib və bu iddialar yalnız Vətən müharibəsi dövrünə aiddir.

Cari ilin sentyabr ayında Azərbaycan Respublikası BMT-nin 1965-ci il tarixli "İrqi ayrı-seçkiliyin bütün formaların ləğv edilməsi haqqında" beynəlxalq konvensiya əsasında Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı uzun müddət ərzində etnik təmizləmə siyasətinin aparılması faktları ilə bağlı Haaqa şəhərində yerləşən BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə də müraciət edib. Qeyd edim ki, bu məhkəmədə də Ermənistan Azərbaycana qarşı əsassız iddialar irəli sürüb.

Prosedura əsasən məhkə-



mə prosesinin ilk mərhələsində hər tərəf məhkəmədən iddianın təmin etmə tədbiri kimi müəyyən təxirəsalınmaz məsələlərlə bağlı müvəqqəti xarakterli qərarların qəbul edilməsini xahiş edə bilər və həm Azərbaycan, həm də Ermənistan məhkəməyə bu barədə sentyabr ayında vəsatətlər vermişdir.

Cari ilin 14-19 oktyabr tarixlərində keçirilən dinləmələr iddiaların mahiyyəti ilə deyil, yalnız bu konkret vəsatətlərin baxılması ilə bağlı olmuşdur.

Azərbaycan tərəfi bu mərhələdə əsasən 3 təcili məsələ üzrə hüquq pozuntularının bu günədək Ermənistan tərəfindən davam edildiyi barədə faktları məhkəməyə təqdim etmiş və məhkəmənin təcili müdaxiləsini xahiş etmişdir:

Ermənistan tərəfindən bu Konvensiyanın tələbləri kobud surətdə pozularaq işğaldan azad edilmiş ərazilərimizdə mövcud olan minalara dair tam, müfəssəl və dəqiq məlumatların, o cümlədən mina xəritələrinin Azərbaycana verilməməsi (və ya qəsdən natamam məlumatların verilməsini) və bununla da məcburi köçkünlərin həmin ərazilərə geri qayıtmasının məqsədli şəkildə qarşısının alınması, bunun da mahiyyət etibarilə etnik təmizləmənin davamı olduğuna görə məhkəmənin müdaxilə etməsi tərəfimizdən xahiş edilmişdir. Bilirsiniz ki, hərbi işğala son qoyulmasına baxmayaraq, ötən ilin noyabr ayından başlayaraq bugünədək bu minaların partlanması nəticəsində 160-dan çox soydaşımız həlak olub və ya ciddi xəsarət alıb, onların 65 mülki şəxsdir;

Vətən müharibəsi zamanı işğalçı erməni ordusu tərəfindən beynəlxalq humanitar hüququn pozulması, o cümlədən mülki əhalinin hədəfə alması, hərbi əsirlərə işgəncələrin verilməsi və digər cinayətlərlə bağlı təqsirkar şəxslərə qarşı heç bir məsuliyyət tədbirlərinin görülməməsi, cinayətlərin törədilməsini sübut edən dəlillərin toplanmaması və ya hətta məhv edilməsi kimi halların qarşısının alınması üçün məhkəmənin müdaxilə etməsi tərəfimizdən xahiş edilmişdir;

Ermənistanda revanşist yönümlü, hərbiləşdirilmiş qrupların Azərbaycana və Azərbaycanlılara qarşı zorakı xarakterli çağırışlar edərək azərbaycanlıları etnik zəmində hədəfə alır. Belə cəhdlər bu gün də sosial şəbəkə və mətbuatda davamlı şəkildə həyata keçirilir. Ermənistan dövlət olaraq bunun nəinki qarşısını almır, hətta onları birbaşa və dolayısı şəkildə dəstəkləyir və bununla da 1965-ci ili Konvensiyasının tələblərini pozur.

Qeyd edilməlidir ki, Ermənistan tərəfindən bu mərhələdə Azərbaycan qarşı irəli sürülən vəsatət əsasən Azərbaycanda saxlanılan, erməni əsilli şəxslərin qeyd şərtsiz azadlığa buraxılmasıdır. Bu tələb onunla əsaslandırır o şəxslər erməni əsilli olduğu üçün həbsdə saxlanılır. Məsələ ilə bağlı tərəfimizdən bu şəxslər tərəfindən Azərbaycanın suveren ərazisində hərbi və digər cinayətlərin törədilməsini sübut edən dəlillər məhkəməyə təqdim edilmiş, Azərbaycanın öz cinayət və cinayət prosessual qanunvericiliyi əsasında bu şəxslərin məsuliyyətə cəlb etməyə hüququnun olduğu, onların etnik erməni olduqlarına deyil, törədilmiş konkret cinayətlərə görə məsuliyyətə cəlb edildiyini sübut edən faktlar təqdim edilmişdir. Digər vəsatətlərdə isə bu şəxslərin hüquqlarının təmin edilməsi, erməni xalqına qarşı nifrət nitqinin qarşının alınması (bu kontekstdə Hərbi Qənimətlər Parkının dərhal bağlanması), Azərbaycan ərazisində yerləşən bəzi dini və mədəni abidələrin (hansıları ki, Ermənistan tərəfi erməni abidələri hesab edir) dağıdılmasının qarşısının alınması və sair bu kimi məsələlər qaldırılmışdır. Hər bir məsələ üzrə Azərbaycan tərəfi və ölkəmizi təmsil edən peşəkar vəkillər öz tutarlı cavablarını, dəlil və sübutlarını təqdim etmişdir.

Bu vəsatətlərlə bağlı məhkəmə qərarı adətən bir neçə həftə ərzində qəbul edilir. Bundan sonra məsələ mahiyyət mərhələsinə keçəcək və növbəti bir neçə il ərzində tərəflərin irəli sürdüyü iddiaların mahiyyətinə baxılacaq və müvafiq qərarlar qəbul ediləcəkdir.

Azərbaycanın Ermənistana qarşı hüquqi məsuliyyət tədbirləri bununla kifayətlənmir. Azərbaycan tərəfi Ermənistana bir sıra digər konvensiyalar üzrə dövlətlərarası şikayətlərin irəli sürməsini planlaşdırır.

Bilirsiniz ki, Azərbaycanın mövqeyi hər zaman beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın əraziləri hərbi işğala, vətəndaşları etnik təmizlənməyə məruz qalmış ölkədir. Azərbaycan haqlı tərəfdir və tərəfimizdən bu işlərin sistemli şəkildə davam etdirilməsi təmin ediləcək".

***İnformasiya xidməti***

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500



# Peyvənd olunanların sayı açıqlandı

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 32 200 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 16 484, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 15 716 nəfərdir.

# Prezident İlham Əliyev Zəngilanda rayon sakinləri ilə görüşdü



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.*

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham Əliyev dedi: Xoş gəlmisiniz Zəngilana. Uzun fasilədən sonra - 27 il erməni işğalından sonra artıq Zəngilan Vətənə qayıtdı, qaytardıq. Şanlı Ordumuz qəhrəmanlıq göstərərək Zəngilan şəhərini və bir neçə kəndi məhz düz bir il bundan əvvəl işğalçılardan azad etdi və beləliklə, 27 illik işğala son qoyuldu. İndi mən "Xoş gəlmisiniz" deyirəm, çünki mən sizi dəvət etmişəm ki, bu gözəl tarixi birlikdə burada qeyd edək. Amma bundan sonra mən Zəngilana gələndə zəngilanlılar "Xoş gəlmisiniz" deyəcəklər.

Zəngilan doğrudan da çox füsunkar təbiətə malik olan bir diyardır. Mən ilk dəfə Zəngilana keçən ilin sonlarında gəldim, dekabr ayında və o vaxt heyran oldum bu diyara. Əzəmətli dağlar, yaşıl meşələr, çaylar, iqlim - bura doğrudan da Azərbaycanın ən gözəl yerlərindən biridir və məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. Çünki köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu. Zəngilan azad olunandan sonra artıq yolumuz Qubadlıya açıldı və beş gün sonra Qubadlı azad olundu, ondan sonra da Laçın dəhlizinə çıxdıq. Laçın dəhlizinə çıxdıqda demək olar, düşmən də bildi ki, artıq müqavimət göstərməyin mənası qalmayıb.

Amma indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "Ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirildi.

Aprel ayında Ağalı kəndinin təməli qoyuldu. Bu gün mən buraya gəlməzdən əvvəl işin gedişatı ilə tanış oldum. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq.

Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni, bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzabəziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik. Əlbəttə ki, ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər buradayıq. Mən dördüncü dəfədir ki, Zəngilana gəlirəm. Dekabr ayında gəlmişdim, o vaxt vəziyyətlə tanış olduq. Ondan sonra fevral ayında gəlmişdim, o vaxt ermənilər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda çinar ağacları əkdik. Aprel ayında gələndə hava limanının təməli qoyuldu. İndi oraya baş çəkdim, artıq zolağın torpaq işləri hazırlanır. Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil. Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmir yolu məsələsi həll olunur. Bu gün Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri növbəti dəfə görüşəcəklər və bizim mövqeyimiz orada bir daha səslənəcək. Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları - bütün infrastruktur qurulacaq, paralel olaraq təbiətin qorunması, çayların qorunması. Bilirsiniz ki, Oxçuçayı ermənilər nə günə qoymuşlar. Oxçuçay təbii fəlakət zonasıdır. Oradan götürülən analizlər göstərir ki, zəhərli maddələrin həcmi normadan bəlkə də 10 dəfə, 20 dəfə artıqdır. Biz bu çayları təmizləyəcəyik və burada dağmədən sənayesi inkişaf edəcək. Vejnəli qızıl yatağını ermənilər xarici şirkətlərlə birlikdə qanunsuz olaraq istismar edirdilər. O xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verdik, yaxın gələcəkdə eşidəcəksiniz. Onların bu işdən boyun qaçırmaq cəhdləri demək olar ki, imkansızdır. Çünki hər şey göz qabağındadır. Başqa ölkənin ərazisində qanunsuz işlər görüb, buradan qızılı qanunsuz olaraq daşıyıb və dünya bazarlarında satıb. Biz onlarla əlbir olanları da məsuliyyətə cəlb edəcəyik. Beynəlxalq hüquqşünasları da cəlb etdik.

Artıq turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika, ətraf mühitin qorunması və əlbəttə ki, insanlar üçün şəraitin yaradılması istiqamətində işlər görülür. İndi Ağalı kəndi inşa edilir, Zəngilan şəhərinin baş planı təsdiq olunandan sonra burada da inşaat işlərinə start verəcəyik. Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcəkdir. Şübhəm yoxdur, bunu sizinlə birlikdə edəcəyik və sizin də məsləhətinizə ehtiyac olacaq. Ona görə ki, baş plan təqdim olunandan sonra gərək ictimaiyyət də öz fikrini desin. Çünki siz - burada yaşamış insanlar yaxşı bilirsiniz, harada nə olub. Yəqin, siz bu dağıntıları görüb yadınıza salırsınız ki, burada nə olub.

# Kamran Əliyev bu rayonlara prokurorlar TƏYİN ETDİ



*Baş Prokuror Kamran Əliyev iki rayon və bir şəhərə yeni prokuror təyin edib.*

Baş Prokurorluqdan Unikal.org-un sorğusuna cavab olaraq bildirilib ki, Baş Prokuror Kamran Əliyevin müvafiq əmrləri ilə, Rahim Səfəralıyev Xızı rayon prokuroru, Kamal Talıbov Şirvan şəhər prokuroru, Fuad Məmmədov Binəqədi rayon prokuroru vəzifələrinə təyinat alıblar.

# "Delta plyus" daha tez yayılır - TƏBİB-dən xəbərdarlıq

*Yeni mutant kimi qələmə verilən AY.4.2 ştamı əslində yeni deyil.*

"Unikal" xəbər verir ki, bunu Trend-ə açıqlamasında TƏBİB-in Elmi-Tədqiqat Profilaktika İnstitutunun elmi işlər üzrə direktor müavini Akif Qurbanov bildirib.

Direktor müavini deyib ki, bu virus iyulda identifikasiya olunub: "Buna "Delta plyus" ştamı deyilir. "Delta plyus" ştamının əsas xüsusiyyətləri olaraq buna ikiqat mutasiya demişdik. İkiqat mutasiya ondan ibarətdir ki, virus daha tez yayılır və orqanizmdə anticismlərə qarşı müəyyən rezisdentlik göstərir".

A.Qurbanov deyib ki, bu ştamların yayılmasına ən çox böyük Britaniyada rast gəlinib və 6 faizi identifikasiya olunub: " "Delta plyus" ştamları "Covid-19" virusunun mutasiya edilmiş formasıdır. Bundan sonra da mutasiyalar gözləyə bilərik. "Covid-19" virusları mutasiyaya meyilli virusdur. Xəstəliyin sürətlə yayılması və daha çox uşaqlarda olması, həmçinin xəstəlik simptomları, ağırlıq dərəcəsi haqqında müzakirələr aparılır və bu barədə təsdiqlənmiş elmi məlumat yoxdur. Onu da vurğulayım ki, istər müalicə, istər profilaktika tədbirləri eynidir. Və ən əsası ekspertlərin gəldiyi qənaət budur ki, hazırda istifadə olunan vaksinlər AY.4.2 və ya "Delta plyus" ştamına qarşı effektivliyini qorumaqdadır".

# Neft Fondunun gəlirləri artıb

*Bu ilin yanvar-sentyabr aylarında Dövlət Neft Fondunun (ARDNF) büdcə gəlirləri 10 444,5 milyon manat, büdcə xərcləri isə 7 328,2 milyon manat təşkil edib.*

"Unikal" bu barədə Fonda istinadən xəbər verir. Məlumata görə, 9 ay ərzində ARDNF neft və qaz sazişlərinin həyata keçirilməsindən 8 178,2 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 7 384,4 milyon manat, bonus ödənişlərindən 772 milyon manat, tranzitdən 16,5 milyon manat, akrhesabı ödənişlərdən isə 5,3 milyon manat gəlir əldə edib. Fondun vəsaitin idarə olunmasından gəliri isə 2 266,3 milyon manat olub.

Hesabat dövründə ARDNF 2021-ci il büdcəsinin icrası çərçivəsində dövlət büdcəsinə 7 309,7 milyon manat vəsait transfert edib. "2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə 3,4 milyon manat yönəldib, idarə edilməsinə isə 15,1 milyon manat xərcləyib.

Fondun valyuta məzənnələrinin dəyişməsindən yaranan fərqlə büdcədənkənar xərcləri isə 1 990,6 milyon manat olub.

Beləliklə, ARNDF-in aktivləri bu ilin əvvəlindən 1,5% artaraq 44 226,4 milyon ABŞ dolları təşkil edib. Artım Fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olub. Ən yüksək gəlirlilik səhm alt portfelində müşahidə olunmaqla investisiya portfelinin hər bir tərkib aktiv növü üzrə müsbət gəlirlilik qeydə alınıb.

# Azərbaycanda ilahiyyatçı dövlətə xəyanətə görə HƏBS EDİLDİ

*İlahiyyatçı, Maide.az saytının rəhbəri Sərdar Babayev həbs edilib.*

Unikal.org xəbər verir ki, bu barədə vəkil Cavad Cavadov məlumat verib.

O bildirib ki, S.Babayev Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham edilib və məhkəmənin qərarı ilə barəsində 4 ay həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Şeyx Sərdar Hacıhəsənli kimi tanınan Sərdar Babayev 2017-ci ildə dini təbliğat, dini ayin və mərasimlərin aparılması tələblərini pozmaqda ittiham edilərək 3 il müddətinə azadlıqdan məhrum edilib. 2020-ci il fevralında isə azadlığa buraxılıb.



## Zakir Həsənov Kəlbəcər və Laçına getdi - Tapşırıqlar verdi

***Müdafiə Nazirliyinin rəhbərliyi Kəlbəcər və Laçın rayonları ərazisində dislokasiya olunan hərbi hissələrin qışa hazırlığını yoxlayıb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Müdafiə nazirinə məruzə olunub ki, hərbi hissələrdə yataqxana və xidməti otaqlar fasiləsiz istilik sistemi ilə təmin edilib, silah və texnikanın payız-qış mövsümünə keçidi təşkil olunub.

Hərbi qulluqçuların ərzaq və isti geyimlə təminatı normaya uyğun şəkildə icra edilib. Yüksək dağlıq və sərt iqlim şəraiti olan ərazilərdə dislokasiya olunan bölmələrə normadan əlavə təminat və təchizat vasitələri ayrılıb.

Qeyd olunub ki, silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yüksək keyfiyyətli yanacaq-sürtgü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin yanacaq-sürtgü materialları mövsümü tələblərə uyğun olaraq dəyişdirilərək mürəkkəb və soyuq iqlim şəraitində istismar olunması üçün hazır vəziyyətə gətirilib.

Sərt iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz rejimində fasiləsiz xidmət aparmaq üçün hərbi hissələrin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılması üçün planlı şəkildə bütün zəruri tədbirlərin həyata keçirildiyi barədə Müdafiə nazirinə məlumat verilib. Məruzə edilib ki, şəxsi heyətin xidməti şəraitinin yaxşılaşdırılması məqsədilə hər növ mebel və inventarla təmin olunmuş yeni modul tipli konteynerlərdən ibarət yaşayış məntəqələrinin quraşdırılması işləri sürətlə davam etdirilir.

Bundan başqa digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə Mühəndis Qoşunlarının bölmələri tərəfindən çətin relyefli ərazilərdə hərəkət yollarının inşa edilməsi və bərpa olunması istiqamətində görülən işlərlə bağlı ətraflı məlumat verilib.=

Müdafiə naziri Azərbaycan Ordusunda şəxsi heyətin təzə və yüksək kalorili qida ilə fasiləsiz təmin olunması, yaşayış məntəqələrinin inşa edilməsi üzrə görülən işlərin sürətləndirilməsi və hərbi qulluqçuların sosial-məişət şəraitinin daim yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

## Müavinət, təqaüd, kompensasiya alanlara vacib xəbər

***Oktyabrın 25-də bütün müavinət, təqaüd, kompensasiya və ünvanlı dövlət sosial yardımının ödənilməsi nəzərdə tutulub.***

Bu barədə Unikal.org-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib.

# "Radikal müxalifət, anti-milli qüvvələr heç vaxt xalqı fikirləşməyiblər"

## Cavid Osmanov: "Onlar yalnız şəxsi mənafeləri uğrunda mübarizə aparan və hansısa xarici qüvvələrin təsiri altında formalaşmış bir qruplaşmadır"

***Tarif Şurasının təbii qazın və elektrik enerjisinin qiymətini qaldırması ilə bağlı qərarı hələ də müzakirə olunur. Belə ki, hökumət və hökumətin siyasətini dəstəkləyənlər bu dəyişikliyin elə də ağır olmadığını söyləsələr də, bu bahalaşmanın ciddi fəsadlar yaradacağını iddia edənlər də var. YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov "Unikal"a müsahibəsində bu mövzuda fikirlərini bölüşüb.***

-Bir neçə gün əvvəl Tarif Şurası tərəfindən elektrik enerjisinin və təbii qazın qiymətinin artırılması qərarı verildi. Əlbəttə ki, bunun köklü səbəbləri var. Birincisi, onu qeyd etmək lazımdır ki, artıq iki ildir ki, dünyanı bürüyən koronavirus pandemiyası bütün ölkələrin, o cümlədən Azərbaycanın iqtisadiyyatına zərər vurdu. Eləcə də təbii qazın qiymətinin dünya bazarında qalxması da bu səbəblərdəndir. Sözsüz ki, bütün bunlar Azərbaycanda da qiymət artımına gətirib çıxarır. Digər tərəfdən, Tarif şurası qərar verərkən, Aztəminatlı ailələrin təbii qaza olan ehtiyaclarının statistikasını aparıb. Düşünürəm ki, bu tariflərin dəyişməsi aztəminatlı ailələrin büdcəsinə ciddi təsir etməyəck.

***-Hər halda, aztəminatlı ailələri nəzərə almaq lazımdır...***

-Tarif şurası qərarı elan elədiyi gün ölkə prezidenti Cənab İlham Əliyev tərəfindən növbəti bir sərəncam imzalandı. Bu sərəncama əsasən 2022-ci ilin dövlət büdcəsində əmək haqqı, pensiya və digər ödənişlərdə artımın hazırlanması, Cənab Prezidentə təqdim edilməsi və növbəti ildə artımların verilməsi nəzərdə tutulur. Bu artım təxminən 1.8 milyon nəfəri əhatə edəcək paketdir. Bununla da ölkə başçısı Azərbaycanda dövlət siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını göstərir.

***-Bir məqamı da nəzərə alaq ki, bu artımlar bütün vətəndaşları əhatə etməyəcək, çünki hamı dövlət qurumlarında işləmir, hamı pensiya almır. Digər tərəfdən, hesablamalara görə, maaş və pensiya artımı bahalaşmaya adekvat deyil. Bu barədə nə deyə bilərsiniz?***

-Biz ilk növbədə hökumətin hazırladığı təklif paketinə baxmalıyıq. Bu qərar verilmədən öncə hesablamalar aparılıb və məqbul variantlar seçilib. Bu mənada düşünürəm ki, əmək haqqı və pensiyalarda ediləcək artım təbii qaz və elektrik enerjisinin artım qiymətini üstələyəcək. Təbii ki, hər kəsin fərqli yanaşması ola bilər. Amma real hesablamalar və mümkün imkanlar ortadadır. Bir də ki, Azərbaycanda işığın və qazın artımdan sonrakı vəziyyəti bir çox ölkələrdəkindən aşağıdır. Fərqli fikir səsləndirənlər bu məqamı da nəzərə alıb danışsalar, yaxşı olar.

***-Müxalifət nümayəndələri isə hökumətin qiymət artımı siyasətini tənqid edirlər. İddia edirlər ki, hökumətin arqumentlərinin iqtisadi əsası yoxdur...***

-Əslində, burada birmənalı qeyd eləmək olar ki, radikal müxalifət, anti-milli qüvvələr heç vaxt xalqı fikirləşməyiblər. Onlar yalnız şəxsi mənafeləri uğrunda mübarizə aparan və hansısa xarici qüvvələrin təsiri altında formalaşmış bir qruplaşmadır. Milli Şura, AXCP, VİP kimi siyasi qüvvələr heç vaxt xalqın maraqlarını fikirləşməyiblər. Bütün bunların hamısı pafoslu çıxışlarla, yalançı vədlər verməklə gündəmdə qalmaq istəyirlər. Biri youtube-dən pul qazanmaqdan ötrü hər gün İnternet kanallarında özünü öldürür, o biri xarici qüvvələrin təsiri altına düşüb onlardan qrant qoparmaqdan ötrü dəridən-qabıqdan çıxır. Yəni, bu radikal, qaragüruh qüvvələrin heç bir fəaliyyətləri yoxdur. Onların işigücü yalnız yalançı təhlillər aparmaq, erməni lobbisi tərəfindən alınmış tezislər əsasında qarayaxma və böhtan kampaniyası aparmaqdır. Müqaisə üçün bir məqamı deyim ki, həmin o qaragüruh qüvvə Qarabağ məsələsindən də özlərinə divident qazanmağa çalışırlar. Bu adamlar 44 günlük müharibədəki qələbəmizin üzərinə kölgə salmaqdan belə çəkinmirlər. Bu adamlar Azərbaycanın ən böyük probleminin həllinə tamamilə fərqli düşüncəylə yanaşırlar. Bu, bizim ən böyük qələbəmiz idi ki, bütövlükdə xalq olaraq birləşdik və qələbə qazandıq. İşğaldan azad olunan ərazilərimizin yenidən qurulması və bərpası işinə də kölgə salmağa çalışırlar. Azərbaycanın müstəqil siyasət yürütməsinə fərqli münasibət sərgiləyirlər. Bu gün qardaşlıq münasibətlərində olan Türkiyə ilə müttəfiqliyimizə də kölgə salmağa cəhd edirlər. Belə bir məqamda ritorik sualım var. Əgər bu adamlar bu cür məsələlərdə belə anti-milli mövqe ifadə edirlərsə, onların hansı fikirlərini səmimi qəbul eləmək olar? Ona görə də bu qüvvələrin nə deməyinin bir mənası yoxdur. Çünki onlar bütün məsələlərdə anti-milli mövqedədirlər.



***-Hakimiyyət son dövrlər dialoq xətti götürüb, partiyalarla görüşlər keçirir. Bəlkə bu biri partiyalarla başqa formada dil tapmaq lazımdır. Mümkündürmü?***

-Cənab Prezidentin sərəncamı ilə Prezident Administrasiyasında siyasi partiyalar və qanunverici hakimiyyət orqanı ilə iş şöbəsi yaradılıb. Bu şöbənin iki illik fəaliyyəti öz müsbət nəticələrini verməkdədir. Əksər müxalifət partiyaları bu dialoqda iştirak ediblər. Bütün milli və dövlətçilik məsələlərində vahid mövqedən çıxış edirlər. Çox təəssüf ki, radikallar dialoqdan imtina edirlər. Onlar ayrı-ayrı xarici təşkilatlardan qrantlar almaq, özlərini siyasətçi kimi təqdim etmək naminə fərqli yol tutur. Dialoqda iştirak edən partiyaların hökumətin fəaliyyəti ilə bağlı səsləndirdikləri fikirləri qəbul edirik, əgər hər hansı problem varsa, nəzərə alınır və həllinə çalışılır. Təəssüf ki, bu addımları radikal müxalifət nümayəndələrində görməmişik, düşünürəm ki, heç görməyəcəyik də.

***Z.Məmmədli***

# Emin Əmirullayev böyük “təmizliyə” başlayır

## O məktəblərin direktorları niyə həyəcan içindədir?

***11 nömrəli İnteqrasiya təlimli internat məktəbinin direktoru Gülnarə Abdullayeva vəzifəsindən azad edilib. Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı Təhsil naziri Emin Əmirullayev əmr imzalayıb.***

Hazırda məktəbin direktoru vəzifəsini Namiq Kərimov icra edir.

Qeyd edək ki, bir müddət öncə Gülnarə Abdullayeva barəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 179.3.2 (Mənimsəmə külli miqdarda törədildikdə), 308.1 (Vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (Vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi açılmışdı. Hazırda istintaq davam edir.



Aparılmış istintaq-əməliyyat tədbirləri ilə müəyyən edilib ki, Gülnarə Abdullayeva 2020-ci ilin yanvar ayından 2021-ci ilin avqust ayınadək olan müddətdə şəxsən və həmin məktəbin əməkdaşları vasitəsilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə faktiki olaraq işə gəlməyən müəllimlərin guya işə gəlməklə tədris həyata keçirməsi, müəllim və tərbiyəçilərin dərs saatlarının artıq göstərilməsi, gündəlik məktəbə gələn uşaqların sayının artıq göstərilməsi ilə onların qidalanması üçün tələb olunan qida məhsulları və içməli suyun artıq rəsmiləşdirilməsinə nail olmaqla 88 min 622 manat pul vəsaitini nağdlaşdıraraq mənimsəməsinə, vəzifə saxtakarlığına yol verərək səlahiyyətlərindən sui-istifadə edib.

Cinayət prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq, G.Abdullayevanın otağına keçirilmiş baxış zamanı ayrı-ayrı şəxslərin adına olan 4 ədəd plastik kart, işçilərin pul vəsaiti verməsi ilə bağlı qeydlərin aparıldığı dəftərçəsi aşkar olunaraq götürülüb.

“Unikal” qəzetinin əldə etdiyi məlumata görə, sözügedən istintaq nəticəsində ortaya başqa korrupsiya əməllərinin çıxması da istisna edilmir. Bu isə səbəbsiz deyil. Çünki 11 nömrəli İnteqrasiya Təlimli İnternat Məktəbində yeyintilərə yol verilməsi ilə bağlı iddialar kifayət qədər çoxşaxəlidir. Bu sırada keçirilən və şəffaflığı, obyektivliyi şübhə doğuran tenderlərin yetərincə müəmmalı nəticələri də var. Məsələn, həmin məktəb tərəfindən 30.03 2020-ci il tarixli 20000 kubmetr içməli suyun satınalmasına dair tenderin nəticələrinə əsasən “Dostluq Servis”MMC ilə 80000 manat məbləğində müqavilə bağlanıb. Sözügedən MMC 09.02.2016-cı ildə Vergilər Nazirliyinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsində dövlət qeydiyyatına alınıb və qanuni təmsilçisi Miriyev Famil Şamil oğlu göstərilir. Şirkətin hüquqi ünvanı isə Bakı şəhəri Binəqədi rayonu Azadlıq pr. ev 187, m.79-dur.

Maraqlıdır ki, 11 nömrəli İnteqrasiya Təlimli İnternat Məktəb eyni ünvanda yaradılan başqa bir MMC ilə də işbirliyində olub. Belə ki, sözügedən məktəb tərəfindən çirkab suyun daşınması üzrə kotirovka sorğusunun qalibi elan edilən “Anar Servis” MMC ilə ötən il 22 min manat dəyərində müqavilə bağlanıb. Qanuni təmsilçisi Miriyeva Nailə Mais qızı olan həmin MMC də Vergilər Nazirliyinin Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsində 02.02.2016-cı ildə dövlət qeydiyyatına alınıb və hüquqi ünvanı “Dostluq Servis” MMC ilə eynidir: Bakı şəhəri Binəqədi rayonu Azadlıq pr. ev 187, m.79.

İndi isə gələk yazımızın canına. Əldə etdiyimiz başqa bir məlumatda qeyd olunur ki, Təhsil nazirində digər internat məktəblərində də xərclərin həddən artıq şişirdilərək ciddi korrupsiyaya yol verildiyinə dair dəqiq məlumatlar var. Elə bu səbəbdən də E.Əmirullayevin belə məktəblərin direktorlarını işdən kənarlaşdırması gözlənilir. Həmçinin Təhsil Nazirliyinin ayrı-ayrı internat məktəblərində korrupsiya yoxlamalarının aparılması üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciət eləməsi istisna olunmur.

Onu da vurğulamaq yerinə düşər ki, internat məktəbləri sovet dövründən qalma təhsil və tərbiyə müəssisəsidir. Aparılan müşahidələrə əsasən, bu məktəblərin əksəriyyətində korrupsiya halları adi hala çevrilib. Xüsusilə uşaqlara verilən qida məhsullarının həcmi və keyfiyyəti, uşaqların sayının şişirdilməsi nəticəsində xərclərin də süni şəkildə artırılması, “ölü ştatların” yaradılması kimi qanunsuzluqlarla külli miqdarda dövlət vəsaitləri mənimsənilir.

Üstəlik, illər öncə aparılan monitorinq zamanı 10 mindən çox əlavə uşaq siyahısı aşkar olunmuşdu. Dövlətin hər uşağa ildə min manatdan çox vəsait ayırmasını nəzərə alsaq, onda nə qədər böyük məbləğdə büdcə pulunun faktiki olaraq talan edildiyini təsəvvür eləmək çətin deyil...

Bütün bunları nəzərə aldıqda Təhsil nazirinin internat məktəbləri ilə bağlı Böyük “təmizliyə” start verməsinə ciddi ehtiyacın olduğu şübhə doğurmur!

***Toğrul Əliyev***

# Səfir Malayziya şirkətlərini ölkəmizə dəvət etdi

***Malayziyanın BERNAMA milli informasiya agentliyi Azərbaycanın bu ölkəyə yeni təyin olunmuş səfiri İrfan Davudov ilə ilk müsahibəsini dərc edib.***



“Unikal” xəbər verir ki, səfir İ.Davudov müsahibə zamanı Azərbaycan və Malayziya arasında davam edən yüksək əməkdaşlıq münasibətlərinə diqqət çəkərək, işğaldan azad edilmiş ərazilərimizdə aparılan böyük miqyaslı bərpa-quruculuq işlərinə bu ölkədən sərmayə qoyuluşunun əhəmiyyətindən bəhs edib. Azərbaycan səfiri Malayziya şirkətlərinin xüsusilə alternativ enerji mənbələri, informasiya texnologiyaları, tikinti, yüngül sənaye, kənd təsərrüfatı, qida emalı, infrastruktur layihələri və turizm sahəsində sərmayə yatıra biləcəklərini vurğulayıb.

İ.Davudovun sözlərini sitat gətirən agentlik yazır: “Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizi “yaşıl iqtisadiyyat” və “yaşıl enerji” zonaları elan edib. Bu, həmin ərazilərdə icra edilən layihələrin “yaşıl texnologiya” siyasəti çərçivəsində həyata keçirildiyini göstərir. Əsas məqsəd isə regionun su, günəş və külək enerjisi ehtiyatlarını inteqrasiya edərək davamlı inkişafı təmin etməkdir”.

Həmçinin Azərbaycan diplomatı xarici sərmayədarlar üçün cəlbedici olan Ələt Azad İqtisadi Zonasından (AFEZ), Bakı Beynəlxalq Dəniz Ticarət Limanından söz açır, ixrac yönümlü iqtisadi təşəbbüslər üçün Azərbaycan dövləti tərəfindən yaradılan müasir infrastruktur barədə məlumat verir.

Səfir İ.Davudov Azərbaycan-Malayziya münasibətlərinin çoxşaxəli xarakterinə diqqət çəkərək, qarşıdakı dövrdə iki ölkə arasında bir çox sahələrdə, o cümlədən elm və təhsil sahəsində geniş əməkdaşlıq potensialının olduğunu nəzərə çatdırır. Bu günlərdə Malayziyanın qabaqcıl ali təhsil müəssisələrindən olan MARA Texnoloji Universitetində (UiTM) keçirilən görüşdən bəhs edərək, iki ölkənin universitetləri arasında tələbə və müəllim, eləcə də elmi təcrübə mübadiləsinin önəmini qeyd edir.

Həmçinin səfir Malayziya İslamın İdrakı İnstitutu ilə Azərbaycan İlahiyyat İnstitutu arasında əməkdaşlıq münasibətlərinin təsis edilməsi, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində fəaliyyətin davam etdirildiyini vurğulayır. Bu zaman məqsədin iki ölkə arasında bütün sahələrdə münasibətlərin yüksək səviyyəyə çatdırılması olduğunu qeyd edir.

# "Düzgün seçki keçirilmədən o vəsaitlər bura axmayacaq” - İlqar Məmmədov



***“Bu gün keçirilən format inkişaf etdirilməlidir”. Unikal.org-un məlumatına görə, bunu Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri İlqar Məmmədov Yeni Azərbaycan Partiyasında “Vətən Müharibəsi: “Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi” mövzusunda keçirilən dəyirmi masada deyib.***

O bildirib ki, müharibənin yaratdığı yeni gerçəkləri müzakirə edilir: “Bu gerçəklər bəlkə də müharibədən əvvəl yaranıb. Bu dialoq mühitinin yaradılması ilə də bağlı idi. Eyni zamanda 14 iyul mitinqini də unutmamalıyıq. Azərbaycanda uzun illər sərbəst toplaşmaq azadlığı lazımsız qədər məhdudlaşdırılırdı. Lakin ölkədə SMS rejimi, pandemiya ilə bağlı ən sərt məhdudiyyətlərin olduğu məqamda on minlərlə azərbaycanlı meydanlara axışaraq, qələbə tələb etdi. Onların tələbini unutmaq olmaz. Azərbaycan vətəndaşları istənilən qəhrəmanlığı göstərməyə hazır olduğunu həmin mitinqdə göstərdi. O mitinqin mahiyyətini düzgün oxumaq lazımdır. Azərbaycanlılar həmin vaxt sosial problemlərdən yorulmuşdu. Çünki neçə illər idi, onlara deyilirdi ki, Qarabağ boyda problemimiz olduğu üçün digər problemlər həll edilə bilmir. Müharibədən sonra Azərbaycanda düzgün seçkilər keçirilməli, Avropa Məhkəməsinin qərarları icra olunmalıdır. Avropa Məhkəməsinin qərarlarının icrasına görə axırıncı yerdəyik. Ən əsası Azərbaycana vəsaitlər cəlb edilməlidir. Qarabağın bərpası üçün 50 milyard vəsait tələb olunur. Təkcə dövlət xətti ilə bura xarici şirkətləri cəlb etməklə oraları bərpa etmək olmaz. Oranı bərpa etmək üçün neft pulu, qaz pulu kifayət etməyəcək. Oraları biz özəl sərmayələrin axması şəraitində bərpa edə bilərik. Amma qanunlar tam icra olunmadan, düzgün seçki keçirilmədən o vəsaitlər bura axmayacaq”.



# Üçüncü dozanı vurduranın kovid pasportu müddətsiz olacaq - Təbib rəsmisi

***İmmunitet sertifikatının etibarlılıq müddəti altı aydır. Həmin müddət bitəndən sonra vətəndaşlara tövsiyə edirik ki, COVID-19 əleyhinə gücləndirici doza vurdursun. Bu zaman bir doza ilə immunitet sertifikatının müddəti müddətsiz olaraq uzanır, həmçinin onun immunitet sertifikatında buster doza deyə bir yazı əmələ gəlir. Hazırda dünyada koronavirus əleyhinə dörd platforma üzərində vaksinlər mövcuddur. Azərbaycan nadir ölkələrdəndir ki, hər dörd platformada hazırlanmış vaksin ölkəmizdə mövcuddur. Vətəndaşlar vaksinasiya zamanı özləri seçim edə bilirlər.***

Hazırda ölkəmizdə 98 faiz "Sinovac" şirkətinin vaksinindən istifadə olunur.

"Unikal" medicina.az-a istinadən xəbər verir ki, bunu TƏBİB-in Xəstəliklərin kontrolu və profilaktikası departamentinin rəhbəri Yaqut Qarayeva deyib.

"Hazırlanan vaksinlər yeni olduğu üçün onların qoruyuculuq müddətini tam dəqiq bilmirik. Araşdırmaların nəticələrini izləyirik. Tədqiqatlar göstərir ki, onların qoruyuculuğu 6 aydan sonra zəifləməyə başlayır. İnsanların immun sistemi çox individualdır. Ona görə də bəzi insanlara buster doza, yəni bir doza tövsiyə olunduğu halda, bəzi hallarda revaksinasiya, yəni iki doza belə məsləhət görülə bilər.

Buster doza eyni istehsalçının da ola bilər, fərqli peyvənd də vurula bilər. Avropada bir çox araşdırmalar göstərir ki, buster doza olaraq fərqli istehsalçıların vaksini seçilərsə, daha yaxşı nəticə əldə etmək olar. Lakin bu, o demək deyil ki, biz gücləndirici doza olaraq eyni vaksin növünü seçə bilmərik. Məlumat üçün bildirmək istərdim ki, Hepatit B-yə qarşı illərdir buster dozadan istifadə olunur. Bu, tibbin profilaktikasında mövcud olan bir haldır və əsas məqsəd bədəndə olan anticisimlərin təsir müddətini uzatmaq və gücləndirməkdir".

Departament rəhbərinin sözlərinə görə, xarici ölkələrin immun və peyvənd sertifikatlarının Azərbaycanda tanınması məsələsi Səhiyyə Nazirliyi tərəfindən həll olunub. Səhiyyə Nazirliyi tərəfindən xarici ölkələrdə vurulmuş vaksin və ya keçirilmiş xəstəliyi təsdiq edən sənəd qəbul olunur, baxılır və buna əsasən qərar verilir.

"Düşünürəm ki, yanvar ayından bu günə qədər vaksinlə bağlı xeyli işlər görmüşük. Tariximizə nəzər salsaq heç vaxt ölkəmizdə belə genişmiqyaslı vaksinasiya aparılmayıb. Hazırda ölkəmizdə 9 milyondan çox vaksin vurulub. Bu, çox böyük rəqəmdir. Lakin hələ hədəfimizə çatmamışıq.

Qarşıdan qış mövsümü gəlir. Qapalı məkanlarda daha çox vaxt keçirəcəyik, təmaslar artacaq. Bu zaman yoluxma saylarının da artımı qaçılmazdır. Ona görə də vətəndaşlara buster dozanı tövsiyə edirəm. Buster dozanı xüsusilə də tibb işçilərinə, yaşı 50-dən yuxarı olanlara, immun sistemi çatışmazlığından əziyyət çəkənlərə məsləhət görürük. Buna baxmayaraq, yaşından asılı olmayaraq, hər kəs müraciət edib üçüncü dozanı vurdura bilər".

# Bakı metrosunda daha bir koronavirus xəstəsi saxlanıldı




***Bakı metrosunun "Memar Əcəmi" stansiyasında aktiv koronavirus xəstəsi saxlanılıb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən məlumat bildirilib.

Qeyd edilib ki, 1981-ci il təvəllüdlü Çingiz Orucov saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Bakı Metropolitenində Polis Şöbəsi əməkdaşları tərəfindən aktiv koronavirus xəstəsinin müalicə təyin olunan ünvana yerləşdirilməsi təmin olunub.

Ç.Orucov barəsində cinayət qanunvericiliyinə uyğun olaraq, barəsində prosessual tədbirlər davam etdirilir.

# Tural Mahmudov müamması...

## BakıBus-da gözlənilməz direktor dəyişikliyinin səbəb(lər)i nə(lər)dir?




***Yola salmaq üzrə olduğumuz həftənin maraqlı xəbərlərindən biri Bakı Nəqliyyat Agentliyinə (BNA) məxsus "BakuBus" MMC-dən gəldi. Belə ki, şirkətin direktoru Tural Mahmudov vəzifəsindən azad edildi.***

MMC-yə rəhbərlik hazırda Elnur Qarayeva həvalə olunub.

Xatırlatma: "BakuBus" Nazirlər Kabinetinin 3 aprel 2014-cü il tarixli qərarı ilə Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində yaradılıb, ölkə prezidentinin 6 iyul 2018-ci il tarixli fərmanı ilə BNA-nın tabeliyinə, 12 fevral 2021-ci il tarixli sərəncamı ilə isə Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilib. Onun nizamnamə kapitalı 30 milyon manatdır. Şirkət paytaxtda avtobuslarla beynəlxalq standartlara uyğun sərnişindaşıma xidməti göstərir.

Qeyd edək ki, T.Mahmudov BakıBus-un rəhbərliyinə bu ilin əvvəlində gətirilmişdi.

Elə xəbəri maraqlı edən də budur: sabiq direktorun vəzifəsini belə qısa müddətdə itirməsi təəccübsüz qarşılana bilməzdi. Görəsən, bu gözlənilməz dəyişikliyin səbəb(lər)i nə(lər)dir?

Öncə vurğulayaq ki, təkcə sadə vətəndaşlar yox, elə iqtisadçı ekspertlər, nəqliyyat mütəxəssisləri də xeyli vaxt idi ki, "Baku Bus" MMC-nin fəaliyyətindən narazılıq edirdilər. Bu qurumla bağlı aparılan müzakirələrdə gəlinən qənaət budur ki, şirkətin fəaliyyətində ciddi nöqsanlar mövcuddur, həmin nöqsanların aradan qaldırılması üçün isə idarəetməyə yanaşma dəyişməlidir. Hətta hesab edilirdi ki, "Baku Bus" MMC-nin özəlləşdirilməsi daha səmərəli addım olardı. Onu da xatırlatmaq yerinə düşər ki, adıçəkilən şirkət əvvəl Bakı Şəhər İcra Hakimiyyətinin, daha sonra isə Bakı Nəqliyyat Agentliyinin tabeliyinə verilmişdi. İndi isə İnvestisiya Holdinqinin nəzarətindədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli Sərəncamı ilə "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurası yaradılıb.

Bu ilin aprelin ortalarında isə Müşahidə Şurasının ilk iclası keçirilib. Müşahidə Şurasının sədri, iqtisadiyyat nazirinin müavini Elnur Əliyev iclasda bildirib ki, "BakuBus" MMC-ni səciyyələndirən əsas xüsusiyyətlərdən biri Cəmiyyətin fəaliyyətində kommersiya elementi ilə yanaşı, sosial elementin də mövcud olmasıdır. O hər iki elementin uzlaşdırılmasını qarşıda duran əsas məqsədlər sırasında göstərib.

Müşahidə Şurasının sədri əlavə edib ki, "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi və daha da inkişafına yönəldilmiş addımların atılması Müşahidə Şurasının əsas vəzifəsidir.

Bəs bu addımlar nə ola bilərdi? Söhbət, ilk növbədə şübhəsiz ki, maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılmasından, gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsindən, idarəçiliyin təkmilləşdirilməsindən gedir. Mümkündür ki, Tural Mahmudovun vəzifəsindən kənarlaşdırılmasına da bu kontekstdən yanaşmaq lazımdır.

Üstəlik, BakıBus-un illərdən bəri zərərlə işləməsinə dair iddialar, hətta bunu təsdiqləyən konkret faktlar da var. Dövlətdən iri məbləğdə dotasiya aldığı bildirilən və hər gün onminlərlə sərnişinə xidmət göstərən bir müəssisə niyə ziyanla işləsin ki? Əslində sualın cavabı bəsitdir: əgər ortada səmərəli idarəetmə yoxdursa, zərər də qaçılmazdır. Bir müddət əvvəl yerli media yazırdı ki, BakıBus avtobus sürücüsünə 500 manatdan baha (!) kostyum alır. Belədə bu qurum dövlətə ağır yük olmayıb neyləsin?

Belə məlumatlar da var ki, bu qurum heç cari xərclərini, yeni sürücülərin maaşını, avtobusların təmirini, yanacağını normal şəkildə ödəyə bilmir və dövlətdən aldığı dotasiyaya möhtacdır. Baxmayaraq ki, şirkətə məxsus avtobusları da elə dövlətin özü alıb. Göründüyü kimi, BakıBus-la bağlı vəziyyət kifayət qədər absurd vəziyyət alıb və bu səbəbdən də qurumda Müşahidə Şurasının yaradılması başadüşüləndir.

İstisna deyil ki, həmin şura fəaliyyətə başlayandan bu yana keçən müddətdə Tural Mahmudovun idarəetmə prinsiplərinin şirkətə faydalı ola biləcəyini yəqinləşdirib, buna görə də onun vəzifədən kənarlaşdırılmasına qərar verilib.

Belə rəylər də var ki, BakıBus-un xüsusilə maliyyə-təsərrüfat fəaliyyətində ciddi nöqsanlar mövcuddur, həmin nöqsanlara yol verilməsi xeyli öncədən başlayıb və bu ilin əvvəlində təyin edilən yeni direktorun zamanında da davam edib. Sözügedən nöqsanların Müşahidə Şurası tərəfindən ortaya çıxarılmış ola biləcəyi və bu səbəbdən də T.Mahmudovun direktor vəzifəsindən azad edilməsinin qərarlaşdırılması da istisna olunmur.

Hər bir halda ürək istəyərdi ki, BakıBus rəhbərinin bu posta təyinat aldıqdan aylar sonra həmin vəzifədən kənarlaşdırılmasının səbəb, yaxud səbəbləri rəsmi şəkildə açıqlansın. Bu cəmiyyətdə, mediada fərqli fərziyyələrin meydana çıxmasını əngəlləyər, üstəlik, ümumi işin xeyrinə olardı.

***Sənan Mirzə***

# Fazil Məmmədovla Əbülfəs Qarayevin borc ortaqlığı...

## İki sabiq nazirin şirkəti ölkə qanunvericiliyinə "meydan oxuyur"





***Azərbaycanda yüksək vəzifə sahibi olan sabiq məmurların və eyni zamanda hazırda yüksək postlarda əyləşən şəxslərin ailə üzvləri tərəfindən onlarla şirkət təsis olunub.***

Bu şirkətlərin rəhbərləri bir çox hallarda məmur yaxınlarının himayəsindən yararlanaraq böyük gəlirlər əldə ediblər.

Lakin, böyük gəlirlər əldə etmələrinə baxmayaraq dövlət büdcəsinə ödəməyə borclu olduqları vergiləri vaxtında ödəməyiblər.

Onların arasında iki sabiq nazirə məxsus şirkətlərin adı xüsusilə diqqət çəkir.

Yerli mətbuatın yazdığına görə, həmin eks-nazirlərdən biri uzun illər Vergilər naziri postunu tutmuş Fazil Məmmədovdur. Belə ki, ona məxsus olduğu bildirilən və Azərbaycanın ən böyük holdinqlərindən biri sayılan "Synergy Group" MMC-nin (VÖEN- 1701078891) dövlət büdcəsinə 26 min 771,56 manat vergi borcu var. Hazırda "Synergy Group" MMC -yə Binəqədi rayonunun sabiq İcra başçısı Xaləddin İsgəndərovun oğlu, eyni zamanda da sabiq nazirin bacısı oğlu Elnur Xaləddin oğlu İsgəndərov rəhbərlik edir.

Sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevə məxsus olduğu bildirlən "GALS" MMC (VÖEN- 1701354961 ) və "SQ-Future" MMC-nin (VÖEN- 1700495641) də dövlət büdcəsinə 16 min manatdan çox vergi borcu var. "GALS" MMC-nin 17 min 227 manat 96 qəpik, "SQ-Future" MMC-nin isə 4 min 38 manat vergi borcu var.

"GALS"-ın sabiq nazirin özünün və ailə üzvlərinin adının baş hərflərindən (Qarayev, Abülfəs, Lalə (həyat yoldaşı) və Suad (qızı) ibarət olduğu deyilir.

Göründüyü kimi, sabiq nazirlərə məxsus şirkətlərin vergi borcları o qədər də böyük deyil. Yəni həmin borcları ödəmək onlar üçün böyük problem olmamalıdır. Bununla belə, adıçəkilən şirkətlər buna həvəs göstərmirlər. Maraqlıdır, görəsən, niyə? Vergi qanunvericiliyinə bu cür laqeyd münasibətin sirri nədir?

Üstəlik, Fazil Məmmədovun özü, yuxarıda da qeyd elədiyimiz kimi, uzun illər Vergilər naziri kimi çalışıb; ən azı bu səbəbdən onun holdinqi vergi borclarını vaxtlı-vaxtında ödəməli deyilmi? Axı Fazil müəllim vəzifədə olduğu müddətdə vergi mədəniyyəti barədə danışmağı çox sevirdi...

Hələ onu demirik ki, cənab Məmmədovun zamanında sahibkarlara sözün həqiqi mənasında "divan tutulur", onlar ən xırda vergi borcuna görə az qala çarmıxa çəkilir, canından bezdirilirdi. İndi necə olur ki, sabiq "vergi şefi"nin şirkəti vur-tut 27 min 771,56 manatlıq vergi borcunu ödəməyə can çəkir?!

Ə.Qarayevin şirkətinə gəlincə... Bu ilin əvvəlində sabiq mədəniyyət nazirinin qızı Suad Malekiyə aid olan və Rusiyada fəaliyyət göstərən "QALS" şirkətinin son bir il ərzində 5 milyon 684 min rubl (75 min 786 dollar) gəlir əldə etdiyi, 319 min 908 rubl (4 min 265 dollar) isə vergi ödədiyi açıqlanmışdı. İki il öncə isə Rusiya Federal Vergi Xidmətində QALS MMC-yə aid məlumatlarda qeyd olunurdu ki, şirkət 2018-ci ildə daşınmaz əmlak biznesindən 6.7 milyon rubl (təxminən 100 min dollar) gəlir əldə edib, federal büdcəyə 430 min rubl vergi ödəyib. Yaxşı, belə olan təqdirdə bəs bu şirkət Azərbaycanda niyə vergi borcuları siyahısındadır?

Hələ onu demirik ki, eks-nazirin digər qızı Lalə Kazımovanın adına Litvada şirkət qeydiyyata alınıb. Həmin şirkət 10 ilə yaxındır ki, Litvanın daşınmaz əmlak bazarında fəaliyyət göstərir. Vülnüsdə Şaltiniy 22-də Qarayevlər ailəsinə məxsus çoxsaylı daşınmaz əmlak icarəsindən əldə olunan gəlir 35 min dollardan artıqdır, ortada isə şirkətin Latviya büdcəsinə hər hansı vergi borcu görünmür. Lakin sabiq nazirin Azərbaycandakı iki şirkəti ümumilikdə təxminən 23 min manatlıq vergi borcunu ödəmək istəmir. Bu absurdu nə ilə izah etmək olar, ümumiyyətlə, izah etmək olarmı?!

Əlavə nəsə yazmaq istəmir və nəticə çıxarmağı hörmətli oxucuların ixtiyarına buraxırıq...

***Sənan Mirzə***

# "Həqiqət Qədirova cinayət məsuliyyətindən qaçmaq üçün..." - Özünü öldürmək istəyən hakim

***Xəbər verdiyimiz kimi, oktyabrın 19-da Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda həkim laborant Əsədli Aynur Azad qızı intihar etməyə cəhd edib.***

Aynur Əsədli Unikal.org-la əlaqə saxlayaraq institutun direktoru Həqiqət Qədirovanın ona qarşı qarayaxma kampaniyası apardığını bildirib:

"Həqiqət Qədirova dünən bizim şöbədə işləməyən, əlaqəmiz olmayan işçiləri yığıb, onlara kağıza qol çəkdirib. Kağızda isə yazılıb ki, guya mənim psixi problemlərim var, ruhi xəstəyəm. Guya ki, mən həmişə belə olmuşam. Mən 22 ildir orada çalışıram, amma mənim heç bir nöqsanım olmayıb. Hamıda dürüst insan, savadlı həkim kimi tanıyır. Həqiqət Qədirova cinayət məsuliyyətindən qaçmaq üçün işçiləri yığıb, mənim əleyhimə imza atdırıb. Bizim şöbədən iki həkimi də çağırıb, boş kağıza qol çəkdirmək istəyirmiş. O həkimlər də etiraz ediblər ki, bu, artıq neçənci dəfədir ki, siz bizə ağ kağıza imza atdırırsınız. Həqiqət Qədirova onları aldatmaq üçün deyib ki, guya ki, bu, mənə lazımdır. Həkimlər də deyiblər ki, bu, Aynur xanımın nəyinə lazımdır ki? Həqiqət Qədirova məni işdən çıxartdırmaq istəyir. Çünki mən onun dediklərini etmirəm, baş əymirəm. Dünən prokurorluqdan müstəntiq gəlib instituta. 10-dan çox işçi izahat verib".




***Murad İbrahimli***

# Vilayət Eyvazov 4 rəisi vəzifədən azad etdi

***Sabunçu Rayon Polis İdarəsində xidməti yoxlama aparılıb.***



"Unikal"ın manset.az-a istinadən məlumatına görə, xidməti yoxlamanın nəticəsində Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun müvafiq əmri ilə Sabunçu Rayon Polis İdarəsinin İctimai Təhlükəsizlik Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Azər Quliyev, Təhqiqat şöbəsinin rəisi, polis polkovnik-leytenantı İlqar Rzayev, Cinayət-axtarış şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rəşad Rəcəbov, Növbətçi hissənin rəisi, polis polkovnik-leytenantı Əli Babayev, müstəntiq Elxan Hacıyev, İctimai Təhlükəsizlik şöbəsinin inspektoru, polis kapitanı Vasif Sadıqov və kadrlar üzrə rəhbər Şəbnəm Rzayeva tutduqları vəzifələrindən azad olunublar.

# Məktəblər bağlansa, yoluxma azalacaq? - Açıqlama



***"Uşaqların sağlamlığı hər şeydən vacibdir. Amma buna məktəbi bağlamaqla nail olmaq mümkün deyil".***

Bu sözləri Unikal.org-a açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. O, bildirib ki, həmin uşaqların valideynləri, ailə üzvləri hər gün marketdə, aptekdə, restoranda olur, ictimai nəqliyyatdan istifadə edirlər: "Biz isə heç bir yerin bağlanmasını yox, ancaq məktəblərin bağlanmasını istəyirik. Uşaqların valideynləri iş yerində yoluxub, evdə uşaqlarını yoluxdura bilməz?! Bizim qədər təhsilə qeyri-ciddi yanaşan ikinci toplum yoxdur. Bu məsələdə çox ciddi olmalıyıq".

Ekspert bildirib ki, distant təhsil keyfiyyətli və əlçatan deyil: "Amma sərt nəzarət və tələbkarlıq olsa, nəyəsə nail olmaq olar. Bəlkə pandemiya 10 il davam etdi, biz də yoluxma azalanda, təhsil müəssisələrini açıb, çoxalanda bağlamaqla tədbir görəcəyik?".

***Könül Oruc***

# "Qarabağ"ın oyununda Elnur Əşrəfoğlunun xatirəsi anılacaq

***Konfrans Liqasının 3-cü turunun bu gün keçiriləcək "Qarabağ" - "Kayrat" oyununda tanınmış telejurnalist Elnur Əşrəfoğlunun xatirəsi anılacaq.***

"Unikal" qol.az-a istinadən xəbər verir ki, Ağdam klubunun təşəbbüsü ilə matçın başlamasına 1 saat qalmış (19:45-də) Respublika Stadionunun bütün elektron tablolarında E.Əşrəfoğlunun şəkli əks olunacaq. Bununla bağlı artıq UEFA nümayəndəsinin razılığı alınıb. Qeyd edək ki, "Qarabağ" - "Kayrat" matçı saat 20:45-də başlanacaq.

E.Əşrəfoğlu oktyabrın 19-da koronavirus xəstəliyindən dünyasını dəyişib.

# Karantin qaydalarını pozan şadlıq sarayı cərimələndi

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları Yevlax şəhərində fəaliyyət göstərən "Təbiyət" şadlıq sarayında keçirdiyi baxış zamanı pandemiya dövrünün tələblərinin pozulduğu aşkar olunub.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, yoxlama zamanı pandemiya dövrünün tələblərinə əsasən, xidmət göstərən işçi heyətin bəzilərinin tibbi maskalardan, əlcəklərdən və digər fərdi qoruyucu vasitələrdən istifadə etmədiyi məlum olub. Aşkarlanan pozuntularla bağlı müəssisənin rəhbərliyi inzibati məsuliyyətə cəlb olunub. AQTA əhalinin sağlamlığının qorunması, həmçinin pandemiya dövrünün tələbləri ilə bağlı qanunvericiliklə müəyyən olunmuş tələblərə əməl olunmasının təmin edilməsi istiqamətində ardıcıl tədbirlərini bundan sonra da davam etdirəcək və qanunsuz fəaliyyətlərin qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirəcək.



## Bir həftədə "Laçın dəhlizi"ndən Qarabağa 200 tranzit avtomobili keçib - RƏSMİ

***Rusiya hərbçiləri Yerevandakı "Erebuni" aerodromundan Xankəndiyə "Laçın dəhlizi" vasitəsilə 10 ton humanitar yük gətiriblər.***

Bir həftə ərzində Laçın dəhlizindən Dağlıq Qarabağa və əks istiqamətə 200-dən artıq tranzit nəqliyyat vasitəsinin və 1000-ə yaxın adamın təhlükəsiz gəliş-gedişi təmin olunub.

"Unikal" xəbər verir ki, məlumatı Rusiyanın Müdafiə Nazirliyi yayıb. Məlumatda deyilir ki, 27 müşahidə postu avtomobil nəqliyyatı və adamların Qarabağa və əks istiqamətə təhlükəsiz gediş-gəlişini sutka boyunca təmin edir.

O da qeyd olunur ki, "mümkün provokasiyaların qarşısını almaqdan ötrü" bütün avtonəqliyyat vasitələri yoxlanır. "Müəyyən günlərdə postdan tikinti materialları olan avtomobil karvanları keçir, onları Rusiya sülhməramlı kontingentinin hərbi polis bölmələri müşayiət edir", - kontingentin təmsilçisi Yevgeni Mişin deyib.

Müdafiə Nazirliyi postların hamısında videomüşahidə kameralarının yerləşdirildiyini qeyd edib.

Laçın dəhlizində və Qarabağda ümumilikdə 27 müşahidə postunun qurulduğu vurğulanıb.

Ötən il noyabrın 10-da Azərbaycan və Ermənistan Rusiyanın vasitəçiliyi ilə atəşkəs razılaşması imzalayıb. Sənədə əsasən, 44 gün davam edən hərbi əməliyyatlar dayanıb, Laçın dəhlizi və qoşunların təmas xəttinə isə Rusiya hərbçiləri yerləşdirilib.

## Kamal Abdulla ingilis professorları ilə görüşüb



***Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla ABŞ-ın Alabama-Birmingen Universitetinin professorları Joseph Wood və Ann Bach ilə görüşüb.***

"Unikal" xəbər verir ki, qonaqları rəhbərlik etdiyi ali təhsil ocağında görməkdən məmnun olduğunu deyən rektor, tələbələrə və müəllimlərə mühazirə oxuduqlarına görə onlara təşəkkürünü bildirib:

"İnanıram ki, bizim tələbələr və müəllimlər sizin kimi öz sahəsinin nüfuzlu alimlərindən bir çox vacib bilgilər alıblar. Əlbəttə, bu, tələbələrin mütəxəssis kimi formalaşmasına, müəllimlərin isə öz sahəsində daha da təkmilləşməsinə öz müsbət təsirini göstərəcək. Azərbaycan Dillər Universiteti geniş beynəlxalq əlaqələri olan ali təhsil ocağıdır. Bizim universitetdə 20 ölkənin dil və mədəniyyət mərkəzi fəaliyyət göstərir. Ümid edirəm, sizin çalışdığınız Alabama- Birmingen Universiteti ilə də əməkdaşlığımız gələcəkdə daha sıx şəkildə davam edəcək, qarşılıqlı maraqlı layihələrimizdən tələbələrimiz və müəllimlərimiz faydalana biləcəklər".

Akademik Kamal Abdulla qonaqlara "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının müqayisəli tədqiqi layihəsini birgə həyata keçirməyi təklif edib. Rektor bildirib ki, bu, ADU-nun və Alabama-Birmingen Universitetinin alimləri üçün yeni elmi perspektivlər açacaq.

Professorlar Joseph Wood və Ann Bach ADU-da olmaqdan, tələbə və müəllimlərlə görüşdən məmnun olduqlarını bildiriblər. Universitetdən xoş təəssüratla ayrıldıqlarını deyən alimlər "Kitabi-Dədə Qorqud" və "Beovulf" dastanlarının birgə öyrənilməsi təklifini müsbət qarşılayıb, təmsil etdikləri universitetdə bununla bağlı məsələ qaldıracaqlarını qeyd ediblər.

Görüş ədəbiyyatşünaslıq və linqvistikanın perspektivləri, inkişaf meylləri, tərcümə sənətinin müzakirəsi ilə davam edib.

# Dövlət Əmək Müfəttişliyi yenidən tənqid hədəfində...

## Cavabı özündə olan sual: bu qurumun fəaliyyətindən narazılıq edənlər, doğrudanmı, haqsızdırlar?




***Budur, yerli media yazır ki, "Gilan Holdinq"in Qəbələ rayonunda yerləşən turizm komplekslərində və istehsal müəssisələrində kütləvi ixtisarlar gedir. İşdən çıxarılan yerli sakinlərdən biri pressklub.az-a bildirib ki, iki həftə əvvəl onlara "Qəbələ Sport Hotel", "Qəbələ Hotel", "Karvansara Otel", "Qafqaz Resort Hotel", "Qafqaz Riverside Hotel", "Gilan Hotel"in fəaliyyətini dayandırdığı bildirilib.***

Hotellərin birində işini itirmiş Qəbələ sakini bildirir ki, onlara bundan sonra fəaliyyət göstərməyəcəklərini deyib, maaşlarını ödəyib, əmək müqavilələrinə xitam veriblər:

Qəzetimizin ötən sayında isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) nəzdində fəaliyyət göstərən Bakı Humanitar Kollecinin (Keçmiş Mədəni Maarif Texnikumu) 67 müəlliminin işdən çıxarılması barədə yazmışdıq. Qeyd eləmişdik ki, çıxarılan müəllimlərdən 46-sı ali təhsilli müəllim, 21-i orta ixtisas təhsilli şəxslər, 5-i isə şöbə müdirləridir. Onu da bildirmişdik ki, kollec direktoru müəllimləri işdən azad edərkən əmək qanunvericiliyinin tələbinə əsasən onları öncədən xəbərdar etməyib. Hər halda işini itirən müəllimlər belə deyirlər və onların ən çox narazı qalan detallardan biri də budur. Üstəlik, onlar adıçəkilən kollecdə işə qəbul olunmalarında və işlərini davam etdirmələrində hər hansı qanunsuzluq olmadığına da əmindirlər.

Bəs bu iki faktı niyə xatırladırıq? Məsələ burasındadır ki, Azərbaycanda uzun illərdən bəridir ixtisarlar aparılarkən əmək qanunvericiliyinə riayət olunması ciddi problemə çevrilib. Elə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov da təcrübədə bu kimi halların illərdir baş verdiyini deyib. Üstəlik, o, konkret olaraq "Gilan Holdinq"dəki ixtisarlarla bağlı danışarkən Əmək Məcəlləsinin 146-ci maddəsinə istinad edərək, qanunvericilikdə müəssisədə işin dayandırılması ilə əlaqədar işçilərin qrup halında məzuniyyətə buraxılmasının tənzimlənməsi qaydasını izah edib: "Maddənin 1-ci bəndinə görə, kollektiv müqavilələrdə, belə müqavilələr bağlanmadığı hallarda əmək müqavilələrində nəzərdə tutulan şərtlərlə və qaydalarda, işin normal ahənglini pozan amillər - təbii fəlakət, istehsalat qəzaları və operativ surətdə qarşısı alınmayan digər hallar mövcud olduqda, işəgötürənin təqsiri olmadan istehsalın, axın xəttinin və işin dayandırılması ilə əlaqədar olaraq işçilər qrup halında ödənişli, yaxud ödənişsiz məzuniyyətə buraxıla bilərlər. Bu halda ödənişsiz məzuniyyətin müddəti, işçinin bu Məcəllədə nəzərdə tutulmuş qaydada müəyyən edilmiş əsas məzuniyyətinin iki illik müddətinin cəmindən çox olmamalıdır. 2-ci bəndə görə, işəgötürənin təqsiri üzündən istehsalın, axın xəttinin və işin dayandırıldığı hallarda işçilərin qrup halında ödənişsiz məzuniyyətə buraxılması yolverilməzdir. Bu hal işəgötürənin təqsiri üzündən boşdayanma hesab edilir və işçilərə bu Məcəllənin 169-cu maddəsində nəzərdə tutulmuş məbləğdə əmək haqqı ödənilir".

Lakin müxtəlif nümunələrdən də göründüyü kimi əmək qanunvericiliyinin tələbləri işəgötürənlər tərəfindən mütəmadi olaraq pozulur, gözardı edilir, bununla bağlı şikayətlər isə adətən "havada qalır". Səbəblər müxtəlifdir. Həmin səbəblərin arasında isə Dövlət Əmək Müfəttişliyinin öz fəaliyyətini kifayət qədər düzgün qura bilməməsini göstərə bilərik. Elə cəmiyyət arasında da belə düşünənlərin, Müfəttişliyin fəaliyyətinin yetərincə effektiv olmamasından şikayətlənənlərin sayı kifayət qədərdir. Məsələn, tez-tez sual olunur: adıçəkilən qurum əmək qanunvericiliyinin pozulması hallarına qarşı prinsipial, təsirli mübarizə aparsaydı, işçilərin hüquqlarının pozulması faktları bu qədər geniş yayılardımı?

Düzdür, Müfəttişliyin rəsmi açıqlamalarından belə nəticə çıxır ki, əmək hüquqlarının tapdanmasına qarşı ardıcıl, güzəştsiz tədbirlər görülür, belə hallara yol verənlər cərimələnir və s.

Ancaq reallıq da göz önündədir: mediada, sosial şəbəkələrdə əmək hüquqlarının pozulmasından giley-güzar edənlərin sayı günbəgün artır. Bu məsələyə məsul olan qurum isə hələ ki, belə halların tamamilə aradan qaldırılması bir yana, barı minimuma endirilməsində yetərli qədər təsir gücünə malik deyil. Ona görə də cəmiyyətin, medianın tənqid hədəfinə yalnız işəgötürənlər deyil, Dövlət Əmək Müfəttişliyi də gəlir. Həm də haqlı olaraq!

Axı Müfəttişlik öz işini düzgün qursa, əmək hüquqlarının qorunması məsələsində prinsipial, güzəştsiz davransa və öz səlahiyyətlərindən maksimum yararlansa işçi haqlarını pozmağa cəsarət edənlər də tapılmaz. Ən azından belə "cəsarət" sahiblərinin sayı xeyli azalar.

Bəlkə düz demirik?!

***P.S. Dövlət Əmək Müfəttişliyi rəsmiləri adətən qurumun ünvanına səslənən bütün tənqidləri təkzib və inkar eləmək yolu tuturlar. O zaman ortaya sual çıxır: bu qurumun fəaliyyətindən narazılıq edənlər, doğrudanmı, tamamilə haqsızdırlar?***

***Yuxarıda yazdqılarımızdan sonra hesab edirik ki, bu suala cavab tapmaq bir o qədər də çətin deyil, hətta cavab elə sualın özündədir...***

***Sənan Mirzə***

## Azərbaycançılıq ideyasının təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycançılıq ideologiyası bizi birləşdirən əsas dəyərdir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətən müharibəsi azərbaycançılıq ideologiyasının "Dəmir Yumruq" kimi möhkəm olduğunu sübut etdi!

### Cavid İsmayıl: "Biz 28 may 1918-ci ildə ilk dəfə olaraq Azərbaycan adlı dövlətin müstəqilliyini elan etmişik, 18 oktyabr 1991-ci ildə isə onun müstəqilliyini bərpa etmişik"

***Bu il Azərbaycanın müstəqilliyinin 30 yaşı tamam olur. Müstəqilliyimizin 30 illiyinə ən böyük hədiyyə isə sözsüz ki, elə 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızın yağı tapdağından azad olunmasıdır. İkinci Qarabağ müharibəsində qazandığımız qələbə xalqımızın azərbaycançılıq ideologiyasının ətrafında bir yumruq kimi birləşdiyinin bariz nümunəsidir. 44 günlük müharibədə xalqımız dövlət başçımızın təbirincə desək, dəmir yumruq kimi birləşə bildi. Bu həm də azərbaycançılıq ideologiyasının qələbəsi idi. Ölkəmizdə yaşayan azsaylı xalqların "Dəmir Yumruq" ətrafında sıx birləşərək torpaqlarımızın azadlığı uğrunda birgə mübarizəsi ideologiya olaraq bütün Azərbaycanın bir olduğunu sübut etdi.***



Aərbaycançılıq milli dövlət ideologiyası kimi, Azərbaycan Respublikasının Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir. Eyni zamanda, bu ideologiya xalqın yadellilərə və bizi istəməyənlərə qarşı qalxanıdır.

Prezident İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək bildirib: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

Qeyd edək ki, hər bir ölkənin müstəqillik qazanması qədər onu ayaqda saxlayan və vətəndaşlarını vahid bayraq, dövlət altında birləşdirən bir ideoloji sütuna ehtiyac duyulur. Dünyada elan olunan bir çox dövlətlər belə bir sağlam ideologiyanın olmaması səbəbi ilə zamanın çarxında dönməyi bacarmayıb və öz müstəqilliyini itirib. Azərbaycanın isə bu sarıdan bəxti gətirib. Heç şübhəsiz ki, bir əsrdə iki dəfə müstəqillik qazanan bir dövlətin sağlam ideoloji əsasları olmadan onu qoruyub saxlamaq qeyri-mümkün olardı. Azərbaycançılıq ideologiyası da məhz bu baxımdan dövlətçiliyimizin dayağı oldu. Eyni zamanda, onun sağlam sütunlar üzərində bərqərar olmasının əsas zəminidir.

Elə odur ki, Müstəqillik günü Azərbaycan xalqı üçün ən əziz günlərdən, ən əziz bayramlardan biridir. Bu günlərdə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında gündəliyə daxil edilən "Müstəqillik Günü haqqında" qanun layihəsi müzakirə edilib. Qanun layihəsinə əsasən, oktyabrın 18-i Müstəqilliyin Bərpası Günü elan olundu. Eyni zamanda Müstəqillik Günü və Müstəqilliyin Bərpası Günü hər il bayram günü kimi qeyd ediləcək.

Tarix üzrə fəlsəfə doktoru Cavid İsmayıl "Unikal" qəzetinə açıqlamasında bildirib ki, 28 mayın Müstəqillik günü, 18 oktyabrın isə Müstəqilliyin Bərpası Günü adlandırılması doğru qərardır: "Yəni biz 28 may 1918-ci ildə tarixdə ilk dəfə olaraq Azərbaycan adlı dövlətin müstəqilliyini elan etmişik, 18 oktyabr 1991-ci ildə isə onun müstəqilliyini bərpa etmişik. Məsələnin mahiyyəti budur. İndiyədək 28 May Respublika günü adlandırılırdı. Günün adının dəyişməsini respublika quruluşuna sayğısızlıq kimi qiymətləndirmələrlə razı deyiləm. Çünki biz əvvəlcə müstəqil dövlətimizi elan etmişik, elə həmin gün də idarəetmə quruluşu olaraq respublikanı seçmişik. Nahaq yerə demirik ki, qurucu babalarımız yoxdan bir dövlət yaradıblar. Məhz yoxdan bir dövlət yaratmağın nəticəsidir ki, 28 may həm Müstəqillik günüdür, həm də Respublika günü".

Tarixçi alimin 18 oktyabr tarixinə münasibəti isə bir qədər fərqlidir: "18 oktyabr 1991-ci il tarixdə Azərbaycan Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edib və bu Akt 29 dekabr 1991-ci ildə ümumxalq referendumu ilə təsdiq edilib. Bundan təxminən iki ay əvvəl - Azərbaycan Ali Sovetinin 30 Avqust 1991-ci ildə keçirilən növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə qəbul edilib. Necə olur ki, 28 May 1918-ci ildə qəbul edilən "İstiqlal Bəyannaməsi" ilə müstəqilliyimiz həmin gündən hesablanır, amma 30 avqust 1991-ci ildə qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə isə müstəqilliyimizin bərpası sayılmır? Axı məntiqlə ikisi də bəyannamədir. Xatırlatmaq yerinə düşər ki, 30 avqust qardaş Türkiyədə Zəfər bayramı kimi qeyd olunur. Bu mənada 30 avqustun Azərbaycanda Müstəqilliyin Bərpası Günü adlandırılması "Bir millət, iki dövlət" fəlsəfəsinə də uyğun olardı. Bununla belə, 18 oktyabrı Azərbaycanın ən yeni tarixində çox mühüm günlərdən biri kimi qəbul edirəm".

Cavid İsmayıl sonda onu da qeyd edib ki, həm Müstəqillik Gününün, həm də Müstəqilliyin Bərpası Gününün ölkədə qeyri-iş günü olması arzuolunandır və bununla bağlı Əmək Məcəlləsinə müvafiq dəyişiklik edilsə, yaxşı olardı.

Qeyd edək ki, indiyə qədər mayın 28-i Respublika Günü, oktyabrın 18-i Dövlət Müstəqilliyi Günü kimi qeyd olunurdu.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Türkiyədə Vətən müharibəsi ilə bağlı təqdimat nümayiş etdirilib

***Türkiyədə rəsmi səfərdə olan Ombudsman Səbinə Əliyeva Ankara Yıldırım Beyazıt Universitetində "Qarabağda həyatın normallaşması prosesi: hüquqi və siyasi qiymətləndirmə" mövzusunda təşkil olunmuş tədbirdə məruzə ilə çıxış edib. Tədbirdə universitetin rektoru, hüquqşünas alimlər, elmi tədqiqatçılar və tələbələr iştirak ediblər.***

"Unikal" xəbər verir ki, Ombudsman çıxışı zamanı əvvəlcə universitetin rektoruna dəvətə görə təşəkkürünü bildirib. O, 44 günlük müharibə dövründə insan hüquqlarının müdafiəsi, habelə beynəlxalq humanitar hüququn norma və prinsiplərinin pozulması faktlarının araşdırılması sahəsində fəaliyyət, beynəlxalq ictimaiyyətə təqdim edilmiş müvafiq hesabatlar barədə danışıb.

Ombudsman çıxışında işğaldan azad olunmuş torpaqlarımızda gizli təhlükə kimi mövcud olan minaların yaratdığı təhlükə haqqında geniş məlumat verib. Bildirilib ki, işğal dövründə Ermənistan tərəfindən yaşayış əraziləri kütləvi şəkildə minalanmışdır. Ombudsman Azərbaycan tərəfinin dəfələrlə bununla bağlı etdiyi çağırışlara baxmayaraq, Ermənistanın hələ də minalanmış ərazilərin dəqiq xəritələrini verməkdən yayındığını qeyd edib.

Bununla yanaşı, Azərbaycan Ombudsmanı tərəfindən mina problemi ilə bağlı müvafiq beynəlxalq təşkilatlara hesabat ünvanlandığı da diqqətə çatdırılıb. Ombudsman beynəlxalq səviyyədə Ermənistana münasibətdə lazımi təsirlərin olmadığını təəssüflə qeyd edib. S.Əliyeva Ermənistanın törətdiyi çoxsaylı ağır cinayətlərə görə məsuliyyətə cəlb edilməsi istiqamətində bütün zəruri addımların atılacağını vurğulayıb.

Yekunda Ombudsman təsisatının 44 günlük müharibə ilə bağlı fəaliyyətinə dair təqdimat nümayiş etdirilib.

## Nazirlik "Azərtütün" ASC-ni satışa çıxarıb

***"Azərtütün" Açıq Səhmdar Cəmiyyətinin (ASC) özəlləşdirilməsinə dair investisiya müsabiqəsi elan edilib.***

Zaqatala rayonu, Yuxarı Tala kəndində yerləşən "Azərtütün" ASC-nin özəlləşdirilməsi üzrə investisiya müsabiqəsində ümumi nominal dəyəri 17 milyon 281 min 464 manat olan 8 milyon 640 min 732 səhmi satışa çıxarılıb.

Müəssisənin 1 milyon 644 min 616 manat öhdəlikləri və 63 min 360 manat debitor borcları var.

Bu müəssisənin özəlləşdirilməsi üzrə keçiriləcək investisiya müsabiqəsində iştirak etmək üçün iddiaçılar investisiya qoyuluşunun istiqamətləri, məbləği və müddəti göstərilməklə ümumi həcmi 8 milyon manatdan az olmayan investisiya proqramı təqdim etməli, yeni iş yerlərinin yaradılması, istehsal prosesinə müasir texnologiyaların tətbiqi, məhsul çeşidinin genişləndirilməsi ilə bağlı təkliflərini verməlidir.

Müsabiqə qalibi Səhmdar Cəmiyyətin səhmlərinin alınmasına görə dövlət büdcəsinə 6 milyon 300 min manatdan az olmayan məbləğdə vəsaitin köçürülməsini təmin etməlidir.

İddiaçıların ərizə və təkliflərinin qəbulu 17 noyabr 2021-ci il tarixinədək iş günləri saat 10:00-dan 17:30-dək Əmlak Məsələləri Dövlət Xidmətində (ünvan: Bakı şəhəri, Y.Səfərov küçəsi, 50) aparılacaqdır.

Komissiya tərəfindən müsabiqə təkliflərinin qiymətləndirilməsi İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin inzibati binasında 18 noyabr 2021-ci il, saat 11:30-dan başlayaraq həyata keçiriləcəkdir.

Məlumat üçün bildirək ki, "Azərtütün" ASC 25.05.2018-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 20 milyon 331 min 134 manat olan ASC-nin qanuni təmsilçisi Məmmədov Eldar Hüseyn oğludur.

## Azyaşlıya qarşı soyğunçuluq edən şəxs saxlanıldı

***Astarada azyaşlıya qarşı soyğunçuluq edən şəxs saxlanılıb.***

DİN Mətbuat Xidmətinin Lənkəran regional qrupundan Unikal.org-a verilən məlumata görə, Astara Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində yetkinlik yaşına çatmayan şəxsin üzərindəki pulu soyğunçuluq yolu ilə ələ keçirməkdə şübhəli bilinən şəxs saxlanılıb. Araşdırmalarla onun Astara rayon sakini, əvvəllər Cinayət Məcəlləsinin bir neçə maddəsilə məhkum olunmuş Fəqan Məmmədov olduğu müəyyən edilib. Saxlanıldıqdan sonra keçirilən şəxsi axtarış zamanı ondan 5 qram narkotik vasitə heroin aşkarlanaraq götürülüb.

Faktla bağlı araşdırma aparılır.

## Ərini öldürən qadının cəzası azaldıldı

***Onu döyərək işgəncə verən ərini öldürməkdə təqsirləndirilən 40 yaşlı Vəfa Orucovanın cəzası azaldılıb.***

"Qafqazinfo" xəbər verir ki, ittihama görə, 2018-ci ildə Vəfa Orucova həyat yoldaşı Rövşən Musayevi bıçaqlayaraq qətlə yetirib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə V.Orucova 12 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdən verilən şikayətə yekunda Ali Məhkəmədə baxılıb.

Hakim Tahir Kazımovun sədrliyi ilə keçirilən iclasda V.Orucovanın cəzası 12 ildən 11 ilə endirilib.

**Həmçinin oxuyun: Bakıda qadın ərini qətlə yetirdi**

Məhkəmə iclasında müəyyən olunub ki, V. Orucova güclü ruhi həyəcan vəziyyətində olarkən ərini öldürüb. Onun himayəsində 3 azyaşlı uşağı var.

Xatırladaq ki, 2018-ci ilin noyabrın 24-də Bakı şəhər sakini Rövşən Musayev Nərimanov rayonu ərazisindəki evindən kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya gətirilib və orada ölüb.

Vəfa Orucova ifadəsində törətdiyi cinayəti etiraf edib. O, bildirib ki, içki düşkünü olan əri onu pozğun həyat tərzi sürüb pul qazanmağa məcbur edib: "Heç nədən dava salıb mübahisə edirdi. Həmin gün də məni döyməyə başladı. Sonra məni bıçaqla vurmaq istəyəndə bıçaq əlindən düşdü. Mən də bıçağı yerdən götürüb vurdum".

## Kişi həyat yoldaşını 104 dəfə bıçaqladı

***İzmirin Buca bölgəsində kəbində olduğu Aysel Perkgünü oğlunun gözü qarşısında döyərək ona ağır xəsarətlər yetirən Feyzo Duran "dəhşətli işgəncə ilə öldürməyə cəhd" təlәbilə məhkəmə qarşısına çıxarılıb.***

Unikal.org xəbər verir ki, o, 28 yaşlı həyat yoldaşına 104 dəfə bıçaq zərbələri vurub.

25 yaşlı F.Duranın narkotik aludəçisi olduğu, baş verən hadisədən sonra yaralı olan Aysel Perkgünün yanında oturaraq onun ölməsini gözlədiyi aşkar olunub. Araşdırma zamanı aydın olub ki, cinayət törətməyə çalışan şəxs arvadını 1 yaşlı uşağının yanında döyüb, onun başında içki şüşəsi sındırıb, sonra onu hamam otağına kilidləyərək dəfələrlə bıçaqlayıb. A.Perkgünün yardım çağırışlarını eşidən qonşular polisə orqanlarına xəbər verib.

104 bıçaq yarasından 8-i ölümcül olan Perkgün dərhal xəstəxanaya aparılıb. Polis isə F.Duranı həbs edib.

*Ağarza Elçinoğlu*

### ELAN

**İbrahimova Aygün İlqar qızına məxsus Xətai rayon Məmmədov küçəsi 2444 A 62 saylı mənzilə sərəncamı itdiyinə görə etibarsız sayılır.**

**Əzimov Nəriman Əhməd oğluna məxsus şəxsiyyət vəsiqəsi, Kapital bank hesab kartı, sürücülük vəsiqəsi, hərbi bilet itdiyinə görə etibarsız sayılır.**

**Əliyli Emin Zaur oğluna məxsus tələbə bileti itdiyinə görə etibarsız sayılır.**

## Nərminin qan qrupu IV, basdırılan meyitin qan qrupu isə II qrup olub?

***Tovuzun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanın öldürülməsində təqsirli bilinən İlkin Süleymanovun məhkəməsi keçirilib.***



Unikal.org "Qafqazinfo"ya istinadən xəbər verir ki, ötən gün Gəncə Ağır Cinayətlər Məhkəməsində hakim Dadaş İmanovun sədrliyi ilə keçirilən iclasda uşağın nənəsi Leybə Quliyeva və əmisi Arif Quliyev ifadə verib.

Nərmin Quliyeva hadisədən əvvəl sonuncu dəfə məhz əmisigildə olub və oradan çıxandan sonra itkin düşüb. Arif Quliyev bildirib ki, qardaşıgillə onun evi arasında məsafə 700 metrdir: "Nərmin bizə gödəkçə gətirmişdi. Günorta saat 3-ə qalmış olardı. Dedi ki, gödəkçəni atası göndərib. Mən də ondan qardaşımgilə bir torba göndərməliydim. Baxdım ki, ağırdır, apara bilməyəcək. Dedim ki, bacını da götürüb gələrsən, apararsız. Nərmin getdi və təxminən bir saat sonra böyük bacısı gəldi ki, Nərmin gəlib çıxmayıb".

A.Quliyev həmin gün Nərminin əynində hansı paltarlar olduğunu tam dəqiqliyi ilə xatırladığını bildirib. Lakin onun dediyi geyimlərlə daha əvvəl ifadə vermiş şahidlərin təsvirləri üst-üstə düşməyib. Arif Quliyevin ifadələrində ziddiyyətlər olduğuna görə onun dindirilməsi növbəti prosesdə davam etdiriləcək.

Məhkəmədən sonra İlkin Süleymanovun ailə üzvləri mediaya açıqlamalarında Nərminin yaxınlarının bir çox məsələləri gizlətdiklərini iddia ediblər. İlkin Süleymanovun qardaşı Adil Süleymanovun sözlərinə görə, Nərminin ailəsi həqiqətin üzə çıxmasını istəmir: "Cinayətin günahsız bir adamın üstündə qalmasına yardım edirlər. Həqiqətləri gizlətdikcə də ziddiyyətlər çoxalır. Məsələn, uşağın anası dindiriləndə demişdi ki, Nərminin əynində axırıncı dəfə yubka, ağ kalqotka olub. Əmisi isə deyir ki, cins şalvar olub. Ona görə ki, yandırılmış meyitin əynində cins şalvar olub. Əmisi Nərminin bütün geyimlərini yadında saxlayıb, amma həmin gün evlərinə gələn qardaşı Şərifin, onun böyük qızının nə geyindiyini xatırlamır?".

A. Süleymanov deyir ki, iş materiallarında daha da ziddiyyətli məqamlar var: "Nərmin Quliyevanın qan qrupu ilə meyitin qan qrupu fərqlidir. Nərminin qan qrupu IV, basdırılan meyitin qan qrupu isə II qrup olub. Bu fakt ekspertiza rəyində də var".

Qeyd edək ki, 1973-cü il təvəllüdlü İlkin Süleymanov Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı qəsdən öldürmə), 144.3 (adam oğurluğu) və başqa maddələrilə ittiham olunur. İttihama əsasən, o, sinif yoldaşı Şərif Quliyevin ailəsi, uşaqları olduğuna görə onu qısqanıb, buna görə də onun qızı Nərmini oğurlayıb və 47 gün sonra qətlə yetirib.

İ.Süleymanov cinayəti törətdiyinə dair etiraf ifadəsinə qol çəksə də, məhkəmədə bunu təkzib edib. O iddia edib ki, Tovuz rayon Polis Şöbəsində işgəncələrə məruz qaldığı üçün ifadəyə məcbur qol çəkib.

Kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə qətlə yetirilmiş azyaşlı Nərmin Quliyevanın qan qrupunun uyğunsuzluğu barədə əsassız məlumatlar yayılmışdır. Bununla bağlı bildiririk ki, istintaq zamanı məhkəmə-tibb, məhkəmə-genetik ekspertizaları təyin edilmiş və zəruri istintaq hərəkətləri keçirilmişdir.

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a bildirilib ki, iş materiallarında hər hansı bir ziddiyətli hallar mövcud deyildir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bir daha kütləvi informasiya vasitələri və sosial media nümayəndələrinə müraciət edilərək qeyd edilir ki, məhkəmə istintaqı zamanı dəqiqləşdirilməmiş və ictimaiyyətdə çaşqınlıq yarada biləcək məlumatların yayılması yol verilməzdir!

## Sabiq bələdiyyə sədrinin cinayət işi məhkəməyə göndərildi

***Ağcabədi rayon Minəxorlu kənd bələdiyyə sədrinin qanunsuz əməlləri ilə bağlı rayon prokurorluğuna daxil olmuş vətəndaş müraciəti əsasında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin ibtidai istintaqı tamamlanmışdır.***



Ağcabədi rayon prokurorluğundan Unikal.org-a verilən məlumata görə, ibtidai istintaqla müəyyən edilmişdir ki, Minəxorlu kənd bələdiyyəsinin sabiq sədri Ədalət Mənsimov işlədiyi müddətdə öz qulluq mövqeyindən tamah niyyətilə istifadə edərək rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil edib 5 min 839 manat məbləğində bələdiyyə vəsaitini bələdiyyənin hesabından məxaric edib mənimsəmiş, bələdiyyə torpaqlarının ayrı-ayrı şəxslərin istifadəsində qalmasına qanunsuz şərait yaratmaq məqsədilə həmin torpaq sahələri üzrə hərrac müsabiqəsi nəticəsində müəyyən olunmuş icarə haqqı qiymətlərinin əhəmiyyətli dərəcədə aşağı salınmasına dair məsələni heç bir hüquqi əsas olmadan bələdiyyə üzvlərinin müzakirəsinə çıxararaq buna dair qərar qəbul olunmasına nail olmaqla hərrac müsabiqəsi ilə müəyyən edilmiş icarə haqqının bir neçə il ərzində bələdiyyə xəzinəsindən kənarda qalmasına səbəb olaraq bələdiyyənin qanunla qorunan mənafeyinə 80 min manat məbləğində maddi zərər vurmuş, həmçinin ayrı-ayrı şəxslərin istifadəsinə bələdiyyə torpaqlarının veriləcəyi ilə bağlı yalan vədlər verərək onlardan ümumilikdə 7 min 500 manat məbləğində pul alaraq dələduzluq etmişdir.

İş üzrə toplanmış kifayət qədər sübutlar əsasında Ədalət Mənsimov Cinayət Məcəlləsinin 178.2.3, 178.2.4 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda dələduzluq törədildikdə), 179.2.3, 179.2.4 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla mənimsəmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində başqa yerə getməmək haqqında iltizam növündə qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilmişdir.

# “İkinci dəfə “neft bumu” tələsinə düşməməliyik” - Ekspert



***“Azeri Light” neftinin 1 barrelinin qiyməti 85 ABŞ dollarını keçib. Gəlirlərimizin artması baxımından bu, əlbəttə, çox yaxşıdır. Amma təəssüf ki, medalın digər üzü də var: Neftin yüksək qiymətləri gəlirlə yanaşı, fəsadlar və risklər də doğurur. Bizim hökumət onlara indidən hazır olmalıdır.***

Bu sözləri AzVision.az-a iqtisadiyyat elmləri doktoru, professor Əlibala Məhərrəmzadə deyib. Onun sözlərinə görə, hər şeydən əvvəl, neftin dünya bazarında yüksək qiymətləri bütün məhsulların bahalaşması deməkdir. Bizim isə idxaldan asılılığımız çoxdur. Nəticədə, ölkəyə “infliyasiya idxalı” böyük miqyaslar alır.

- Əslində ölkəyə valyuta axını çoxaldığından, manat təbii olaraq, möhkəmlənməlidir. Alt qatda bu proses gedir: manat möhkəmləndikcə, maliyyə sabitliyimizvə makroiqtisadi dayanıqlıq güclənir. Sadəcə, Mərkəzi Bank milli valyutamızın məzənnəsinin qalxmasına imkan vermir. Problem ondadır ki, bizim xarici valyuta gəlirlərimiz məhdud çeşiddə məhsul qrupundan əldə olunur, bu isə riskləri artırır. İndi əgər Mərkəzi Bank manatın məzənnəsini yüksəltsə, bu, əsasən neftin sürüşkən zəminə söykənəcək. Neftlə bağlı proqnozlar isə, optimist olsa da, heç kim sabah vəziyyətin necə olacağına zəmanət verə bilməz. Hər hansı səbəbdən neftin qiymətləri qəfil düşsə, manat “quru yerdə qalacaq”. 2015-2016-cı illərdə bunun şahidi olmuşuq. O vaxt Mərkəzi Bank 1 il ərzində sadəcə daxili valyuta bazarında manatın dəyərini qoruyub saxlamaq üçün 11 milyard dollardan çox vəsait xərcləmişdi. Bu, praktik olaraq, havaya sovrulan pullar idig Halbuki, o vəsait vaxtında qeyri-neft sektorunun inkişafına yönəldilsə, bəlkə heç həmin vəziyyət də yaranmazdı,- professor bildirib.

Əlibala Məhərrəmzadənin sözlərinə görə, 6 il əvvəl neft ucuzlaşandan sonra qəfildən aydın oldu ki, qeyri-neft sektorunun inkişafında gecikmişik; ölkədə “əlimyandı”da islahatlar keçirildi, qeyri-neft sektorunu inkişaf etdirmək üçün proqramlar, “yol xəritələri” qəbul olundu və bütün bunlar müəyyən nəticələr də Verdi: “Qeyri-neft sektorunda inkişaf başladı, amma hələ də arzu olunan səviyyəyə çatılmayıb. İndi isə yeni neft bumunun başlaması ərəfəsindəyik. Gəlirlərimiz artır, amma yenə də enerji ixracının hesabınag Sanki spiral bir dəfə burulub və indi ikinci dövrə başlayır”.

Ekspert güman edir ki, Mərkəzi Bankın manatın məzənnəsini qaldırmaması birinci böhradan çıxarılan dərslərlə bağlıdır. Amma bundan da önəmli məsələ var.

- Hazırda ölkədə qeyri-neft məhsullarının ixracı artır: ilin ilk 8 ayında 1 milyard 580 milyon dollarlıq qeyri-neft məhsulları ixrac edilib ki, bu da, keçən ilin eyni dövrü ilə müqayisədə 37,1 faiz çoxdur. Biz çox vacib bir “qırmızı xətt”ə yaxınlaşırıq: neft bahalaşdıqca, idxal artır, yerli istehsalın vəziyyəti çətinləşir. Ölkəyə pul gəlir və həmin pula hazır nəsə almaq daha cazibəli variantdır, nəinki əziyyət çəkib, istehsal etmək. Biz ikinci dəfə bu tələyə düşməməliyik. Nə olursa-olsun, bu dəfə neftin bahalaşması qeyri-neft sektoru üçün buxova çevrilməməlidir. Yəqin ki, hökumət də bunu bilir və artıq müvafiq planlar qurur,- Əlibala Məhərrəmzadə bildirib.

## Zəngilandakı rəqəmsal yarımstansiyaya "Yaşıl enerji" inteqrasiya olunacaq

***Zəngilanda 35/10 kV-luq 240 kilometrlik və 0,4 kV-luq 1050 kilometrlik elektrik veriliş xətti tamamilə yenidən qurulacaq. Ənənəvi təchizat sxemindən fərqli olaraq, yeni struktur şəbəkə iqtisadi baxımdan daha səmərəlidir. Yeni qurulacaq şəbəkədə “Ağıllı şəhər”, “Ağıllı kənd” layihələrinin infrastrukturu üçün bütün imkanlar mövcud olacaq.***

“Unikal” xəbər verir ki, bunu “Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimində iştirak edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya etdiyi məruzədə bildirib. Onun sözlərinə görə, dövlət başçısının “İşğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” sərəncamında qarşıya qoyulan vəzifələrin icrası üçün “Azərişıq” Paylayıcı Şəbəkələrin Yaşıl Enerji Zonası tələbləri üzərində qurulmasına start verib, “Ağıllı şəbəkələr” konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb. Belə yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emal edir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir.

Nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsi olan bu tipli yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanması təmin edilir, bütün ölçülər yüksək dəqiqliklə aparılır. Avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Rəqəmsal yarımstansiyalarda iş alınan və ötürülən elektrik enerjisinin miqdarına görə multifunksional rejimdə qurulur, cihaz və avadanlıqlar bir-birilə koordinasiya vəziyyətində işləyir, əməliyyatlar paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılır, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti təmin edilir.

Ən əsası, “Yaşıl enerji” mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alır.

# Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın növbəti görüşü keçirilib

***Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Texnologiya və İnnovasiyalar üzrə İşçi qrupunun növbəti görüşü baş tutub.***

Texnologiya və innovasiyalar üzrə İşçi qrupunun rəhbəri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov iclası açıq elan edərək müzakirə olunacaq məsələlərlə bağlı məlumat verib.




Komissiyanın iclasında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və digər vətəndaş institutlarının nümayəndələri iştirak ediblər.

İştirakçılar tərəfindən Refinitiv bazaya çıxışın əldə olunması, “İnzibati icraat haqqında” Qanuna, Vençur və kraudfandinq fəaliyyəti ilə bağlı mövcud qanunvericiliyə dəyişiklik edilməsi ilə bağlı hazırlanmış normativ hüquqi akt layihələri, Azərbaycan elmi istinad indeksinin tətbiqi imkanları, “Qlobal İnnovasiyalar İndeksi” üzrə 2021-ci il hesabatına əsasən ölkənin mövqeyinə təsir edən subindekslərin yaxşılaşdırılması istiqamətində müzakirələr aparıblar.

Eyni zamanda https://azranking.az/online-apply onlayn müraciət bölməsi vasitəsilə özəl sektor nümayəndələrinin və vətəndaşların İşçi qrupunun fəaliyyətinə cəlb edilməsi, müzakirələr aktiv qoşulması imkanları barədə danışılıb.

Sonda ölkənin mövqeyinin Qlobal Rəqabətlilik və Qlobal İnnovasiyalar indeksləri üzrə yaxşılaşdırılması istiqamətində müvafiq qərarlar qəbul edilib.

Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyasının Texnologiya və innovasiyalar üzrə İşçi qrupunun növbəti iclasında iştirak etmək istəyən şəxslər https://azranking.az/online-apply onlayn müraciət bölməsi vasitəsilə müraciət edə və müzakirələrə qoşula bilərlər.

# Azərbaycanda ictimai ferma yaradılacaq

***“Ağıllı kənd” layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb”.***

“Unikal” xəbər verir ki, bunu kənd təsərrüfatı naziri İnam Kərimov Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya etdiyi məruzədə bildirib.

Onun sözlərinə görə, əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb” “Ağıllı kənd”də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada “Ağıllı idarəetmə sistemi” data və təhlil mərkəzindən həyata keçiriləcək.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. “Ağıllı kənd təsərrüfatı”nda müasir suvarma sistemlərindən istifadə olunacaq”.



## Putin İsrailin Baş naziri ilə görüşəcək

***Rusiya Prezidenti Vladimir Putin İsrailin Baş naziri Naftali Bennettlə görüşəcək.***

Unikal.org-un xəbərinə görə, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Oktyabrın 22-də Soçidə baş tutacaq görüşdə Yaxın Şərqdəki vəziyyət və müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlıq müzakirə olunacaq.

## Rusiyada Atom Elektrik Stansiyasında buxar sızması oldu

***Rusiyada Atom Elektrik Stansiyasında (AES) buxar sızması olub.***



Unikal.org "TASS"a istinadən xəbər verir ki, hadisə Rostov şəhərində yerləşən AES-də qeydə alınıb.

Bildirilib ki, sızma səbəbindən AES-in ikinci enerji bloku dayandırılıb.

Məlumata əsasən, enerji bloku təmir üçün dayandırılıb. Həmçinin qeyd olunub ki, radiasiya fonu qaydalar çərçivəsindədir.

## Ermənistan vətəndaşı sərhəddə saxlanıldı

***Gürcüstana qanunsuz yolla qızıl idxal etməyə çalışan Ermənistan vətəndaşı saxlanılıb.***

Unikal.org xəbər verir ki, ölkənin Maliyyə Nazirliyinin Gəlirlər Xidmətindən verilən məlumata görə, Ermənistanla sərhəddəki "Sadaxlı" gömrük-buraxılış məntəqəsində həmin şəxsin əl yükünə keçirilən baxış zamanı bəyan edilməmiş 100 qram çəkidə qızıl külçə aşkarlanıb. Qaçaq malın dəyəri 17 686 lari (5 632 ABŞ dolları) təşkil edib.

Faktla bağlı Maliyyə Nazirliyinin İstintaq Xidmətində araşdırma aparılır.

## Əfqan qadınlar "Taliban" əleyhinə aksiya keçirdi

***Əfqanıstan Xarici İşlər Nazirliyinin binası qarşısında etiraz aksiyası keçirilib.***

Unikal.org xəbər verir ki, qadınların keçirdiyi etirazların mahiyyəti "Taliban" hökumətini qadın hüquqlarına hörmət etməyə çağırışdan ibarət olub. Qadınlar həmçinin hökumətdə təmsil olunmaq arzularını dilə gətiriblər.

Qeyd edilib ki, etirazçıların sayı 30 nəfərdən çox olub. "Taliban" hökumətinin aksiyanı datdığı, çəkiliş aparan jurnalistləri döydüyü bildirilib.

# Saakaşvili oyunu "3+3" formatı ilə bağlı ola bilərmi - TƏHLİL

***Gürcüstanın 3-cü prezidenti, 2003-cü ildə "məxməri inqilab"la hakimiyyətə gələn, 2008-ci ildə Cənubi Osetiya və Axaziyanın ölkəsinə birləşdirilməsi üçün Rusiyaya qarşı müharibəyə başlayan, lakin buna nail ola bilməyən, post-sovet məkanının ən qalmaqallı siyasətçisi, 54 yaşlı Mixail Saakaşvili hazırda Rustavi şəhərində yerləşən 12 saylı həbsxanada təkadamlıq kameranın məhbusudur. Deyilənə görə, həbsxanada ona "cənab prezident" şəklində müraciət edirlər.***

Saakaşvillinin ukraynalı rəfiqəsi, Ali Radanın deputatı Yelizaveta Yasko isə iddia edir ki, "cənab prezident"in səhhəti kritik vəziyyətfdədir və təcili müalicəyə ehtiyacı var. Yaskonun sözlərini Saakaşvilinin şəxsi həkimi Nikolaz Kipşidz də təsdiq edib və keçmiş prezidentin səhhətinin pisləşməsini günlərdir davam etdirdiyi aclıq aksiyası ilə əlaqələndirib. Saakaşvilli isə elan edib ki, özü və ona görə qeyri-qanuni həbs olunanlar azad edilməyincə aclığı dayandırmayacaq.

Qeyd edək ki, Gürcüstan prokurorluğu Saakaşvilinin qeyri-qanuni olaraq dövlət sərhəddini pozması ilə əlaqədar cinayət işi qaldırıb və bu cinayət işi çərçivəsində artıq üç nəfər həbs olunub. Onlardan biri, Saakaşvilinin xəngəl yemək istəyərkən həbs edildiyi mənzilin sahibi 63 yaşlı Elquci Çomayadır.

2012-ci ildə keçirilən prezident seçkilərində uduzduqdan sonra Gürcüstanı tərk edən Saakaşvili barədə müxtəlif illərdə səlahiyyətlərindən sui-istifadə etmə ittihamı ilə 3 dəfə cinayət işi qaldırılıb və qiyabi hökm oxunub. Bu hökmlərə əsasən Saakaşvili ümumilikdə 12 il həbsdə qalmalıdır. Onun həbsdən azad olunması üçün hazırda mümkün olan yeganə leqal prosedur prezidentin əfvi olsa da, Gürcüstanın dövlət başçısı Salome Zurabişvili qətiyyətlə bildirib ki, heç vaxt belə bir addım atmayacaq. Zurabişvilinin bu bəyanatı Tiflisdə Saakaşvilinin azad olunması tələbilə keçirilən mitinqdən əvvəl səsləndirdiyini nəzərə alsaq, prezidentin artıq bu qədər qətiyyətli danışmayacağını əminliklə söyləmək olar.

Zurabişvilidən fərqli olaraq, Saakaşvilinin özünün ikinci vətəni saydığı Ukraynanın prezidenti Vladimir Zelenski nəyin bahasına olursa-olsun, Mişanın azadlığa çıxmasına nail olacağını bildirib. Lakin Gürcüstan prokurorluğu iddia edir ki, Kiyevdən Saakaşvilli ilə bağlı hansısa sorğu daxil olmayıb.

Mixail Saakaşvilinin vətənə qayıdışı təbii ki, özünün dediyi kimi, təkcə "Gürcüstandan ötrü darıxmağı"ilə bağlı deyil, burada söhbət qlobal əhəmiyyətli missiyadan gedir. Sirr deyil ki, Cənubi Qafqazın geostrateji əhəmiyyətinin artması fonunda qlobal oyunçular regionda öz məqsədlərini həyata keçirməyə çalışırlar və bunun üçün Qafqaz respublikalarında sabit siyasi vəziyyətin qalmasında maraqlıdırlar. Gürcüstanın hazırkı hakimiyyəti isə artıq uzun müddətdir ki, siyasi sabitliklə öyünmək sevincindən məhrumdur. Son illərdə gürcüstanlı siyasətçilər ölkəni bürüyən siyasi böhranın öhdəsindən gəlməkdə acizdirlər. Hətta Avropa İttifaqının prezidenti Şarl Mişelin proseslərə müdaxiləsi və bunun üçün ittifaqın büdcəsindən vəsait ayırması da proseslərin tənzimlənməsinə gətirib çıxarmadı.




Məhz bundan sonra "Saakaşvili planı" işə salındı. Onun dövlət strukturlarının xəbəri olmadan ölkəyə daxil olması göstərir ki, keçmiş prezidentin hələ də hakimiyyət daxilində ciddi dayaqları mövcuddur. Bunu seçki öncəsi Gürcüstanın Dövlət Təhlükəsizlik Xidmətinin nüfuzlu siyasətçi, diplomat və hətta din xadimlərini dinləməsi barədə audio faylların yayılması da sübut edir. Əgər həqiqətən də, Saakaşvilinin ölkədəki siyasi vəziyyətə təsir etmək gücündə siyasi dayaqları mövcud olubsa, niyə indiyə qədər bu imkanlardan istifadə edərək, vətəninə qayıtmayıb? Məntiqli cavab odur ki, Saakaşvili qayıdışı hazırki tarixi mərhələdə ehtiyaca çevrilib və məhz bu səbəbdən keçmiş əlaqələr yenidən işə salınıb.

Saakaşvilinin Gürcüstana dönməsində əsas məqsəd onun yenidən hakimiyyətə qaytarılmasıdır və bu prosesdə Avropa İttifaqı ilə yanaşı, hətta Rusiya da maraqlı ola bilər. Avropa İttifaqının əsas marağı Cənubi Qafqazın hər üç respublikasında siyasi sabitliyi təmin etməkdir ki, regional iqtisadi layihələri uğurla icra olunsun. Bunun üçün Gürcüstanda ilk növbədə əhali arasında siyasi fəallıq artmalıdır. Diqqət etsək, Saakaşvilinin əsas çağırışlarından biri öz yaratdığı partiyanın lehinə səs vermək yox, ümumiyyətlə səsvermədə iştirak etmək idi. Eyni zamanda, artıq vətəndaş müharibəsi səviyyəsinə qalxmış iqtidar-müxalifət münasibətləri tənzimlənməli və cəmiyyətdə nisbi həmrəylik əldə olunmalıdır ki, siyasi sabitlik təmin edilsin. Bunun üçün xarizmatik liderə ehtiyac var ki, bu rolun öhdəsindən Saakaşvilli uğurla gələcək.

Nəhayət, qeyd olunmalıdır ki, tarixdə ilk dəfə Qafqazda sabitliyin qarantı sayılacaq unikal əməkdaşlıq formatı olan "3+3" formulu irəli sürülüb ki, bu, eyni zamanda Qərbi də qane edir. Lakin Gürcüstanın hazırkı hakimiyyəti ictimai etirazdan çəkindiyi üçün bu formul çərçivəsində əməkdaşlığa daxil olmaqdan ehtiyatlanır. Çünki bu format dolayı yolla Rusiya ilə əməkdaşlığı nəzərdə tutur. "Gürcü arzusu" ictimai şüurda Rusyayönümlü siyasi təşkilat kimi qavranıldığı üçün Qaribaşvilli hökumətinin istənilən rusiyayönümlü addımı ciddi etirazla qarşılanır.

Bu nöqteyi-nəzərdən, Gürcüstanı "3+3" formatına qoşmaq gücündə olan yeganə lider kəskin qərbpərəst mövqeyi ilə tanınan və Rusiya ilə münasibətləri düşmənçilik səviyyəsində olan Saakaşvilidir. Məhz Saakaşvilinin əli ilə Gürcüstanın bu formatda əməkdaşlığa daxil olmasını gürcülər satqınlıq kimi qəbul etməyəcəklər. Odur ki, bu ehtimallar real olarsa, Saakaşvilinin Gürcüstana gətirilməsinin arxasından elə Bidzina İvanişvilinin özü də çıxa bilər. Artıq belə ehtimallar səsləndirilməkdədir. Unutmaq olmaz ki, Saakaşvilinin hakimiyyətinin ilk illərində onun əsas dəstəkçilərindən biri məhz İvanişvili olub.

***Tofiq Vahid***

# Bambadan ŞOK faktlar: "Xəzər Lənkəran"da futbolçular pul yığırdı ki..."



***İsveçrə kubokunun finalçısı, İsveçrə Çağırış Liqasının (Birinci Divizion) qalibi, Azərbaycan kubokunun finalçısı və qalibi, Azərbaycan çempionatının gümüş və bürünc mükafatçısı və ən nəhayət, 2005-06 mövsümündə 16 qolla Azərbaycan Premyer Liqasının ən sərrast futbolçusu...***

Xatırlayanlar xatırladı. Xatırlamayanlar üçün xatırladaq ki, söhbət vaxtilə ölkəmizdə sayılıb-seçilən legionerlərdən olmuş, "Karvan"la "Xəzər Lənkəran"ın şərəfini qorumuş, çoxlarının Yaqub Babayev kimi çağırdığı Yakuba Bambadan gedir.

Sabiq legionerlə söhbətdəki növbəti müsahib 46 yaşlı Bamba oldu. Ötənlərin məşhur hücumçusu ötüb-keçənləri, vaxtilə Azərbaycanda başına gələn ən maraqlı hadisələri dilə gətirdi.

**- Fil Dişi Sahilindəsən, yoxsa Avropada?**

- Hazırda Fil Dişi Sahilindəyəm. Bəzən qısa müddətlik Parisə gedib-qayıdıram.

**- Harda yaşayırsan?**

- Yaşayış yerim buradır, çünki burda uşaq və yeniyetmələrin inkişafı üçün yaratdığım klubun sahibiyəm. Parisə oğlumun yanına gedirəm.

**- Azərbaycanı xatırlayırsan? Yadına düşür buralar?**

- Xatırlayırsan da sözdür, qardaş. Oynadığım ölkələrin arasında Azərbaycan mənim üçün ən möhtəşəmi və unudulmazı olub. Yalan danışmıram, Allaha and olsun belədir.

**- 6 il oynadığın İsveçrədən də üstün?**

- Əlbəttə.

**- Niyə?**

- İsveçrə tanınmış, çox inkişaf etmiş, bir çox keyfiyyətlərinə görə digər ölkələri qabaqlayan yer ola bilər. Amma Azərbaycan tam başqadır mənim üçün. Əvvəla, müsəlman ölkəsidir. Digər tərəfdən insanları mehribandır. Gecə getməyə yerin olmaz, qapını üzünə açıb, sənə yatmağa yer verərlər. Bu, hər ölkədə belə deyil. Yevlaxda, Bakıda o qədər dostlarım var idi ki, özümü Kot d İvuardakı kimi hiss edirdim.

**- Elədirsə, niyə gəlib-getmirsən?**

- Niyə elə deyirsən? 5 il əvvəl gəlmişdim axı. Bir neçə gün qaldım, gəzdim, dostlarımı gördüm. Tez-tez səfər etməyə imkanım olmur, açığı. Amma yaxın zamanda yenə səfər edəcəyəm. Azərbaycan mənim üçün çox doğmadır.

**- Niyə gəlmişdin?**

- Elə-belə, gəzməyə, dostlarımı görməyə.

**- Yevlaxa getmədin?**

- Düzünü desəm, yox. Vaxt azlığına görə mümkün olmadı. Bu dəfə gələndə mütləq gedəcəm. Yevlax mənim doğma rayonumdur. Oranın Yaqub Babayev adlı vətəndaşıyam (uca səs gülür).

**- O da yadında qalıb?**

- Yadında qalıb nədir? Vətənimdə dostlarım məni Yaqub Babayev çağırır. "Feysbuk"dakı ad-soyadım da Yaqub Babayevdir. Yakuba Bamba artıq keçmişdə qalıb (gülür).

**- Vaxtilə çiyin-çiyinə oynadığın komanda yoldaşlarından kimlərləsə əlaqən qalıb?**

- Tərlan Əhmədov "feysbuk"da dostluğumdadır. İndi məşqçi işləyir, bir ara "Neftçi"ni çalışdırırdı. Nazar Bayramovu, "Xəzər Lənkəran"dan Emin Quliyevi, daha bir neçə nəfəri də sosial şəbəkələrdə izləyirəm, paylaşımlarını görürəm.

**- "Xəzər Lənkəran" demişkən, yevlaxlı azarkeşlərin sevgisini qazana bilsən də, lənkəranlıların sevimlisi ola bilmədin. Uğurlu "Karvan" karyerasından sonra Lənkəranda özünü göstərməyə nə mane oldu?**

- Ora getməklə çox böyük səhv etdim. Çünki "Xəzər Lənkəran" mənə kənardan yaxşı görünürdü. Tək mənə yox, hamıya. Getdim gördüm futbol komandası deyil, mafiyadır.

**- Nə mafiyası?**

- Özüm də bilmirəm nə mafiyasıydı. Komandanın içində qruplaşma var idi, braziliyalı futbolçular digərlərindən pul yığırdı. Nə bilim, qəribə hadisələr yaşanırdı içəridə. Rəhbərlikdə təmsil olunanlar isə öz işindəydi. İnanırsan, özümə də, futbola da nifrət edirdim orda. Ona görə də oyunum alınmadı. Müqavilənin müddətinin başa çatmasını gözləyirdim ki, çıxıb gedim.

**- Baş məşqçi Ağasəlim Mircavadov bunları görmürdü?**

- Mircavadovluq bir şey yox idi. O, əla kişi idi, məni çox istəyirdi, güvənirdi. Bunu rəhbərlik görməli, ölçü götürməliydi. Onlara isə, futbol lazım deyildi. Kimin transferindən yaxşı pul qazanırdılar, ona daha çox şans verirdilər. Çox şeylər var idi, çox şeylər.

**- "Karvan"ı "Xəzər Lənkəran"a pula görə dəyişmişdin, düzdür?**

- Burda gizlədəcək bir şey yoxdur. 32 yaşım var idi və karyeramın sonu yaxınlaşırdı. 2-3 il futbol oynayıb, karyeramı bitirəcəkdim. "Xəzər Lənkəran"dan yaxşı təklif gəldi deyə, "Karvan"dan ayrıldım. Yevlaxda hamı qərarıma hörmətlə yanaşdı. Çünki məni yaxşı başa düşürdülər.

**- "Xəzər Lənkəran" nə qədər pul təklif etmişdi?**

- Aylıq 10 min dollar.

**- Bəs "Karvan"da nə qədər alırdın? (sportinfo.az)**

- ...

**(davamı olacaq)**



# Mahir "Napoli"yə qarşı oynamaya bilər

***"Legiya"da çıxış edən millimizin üzvü Mahir Emreli Avropa Liqasının qrup mərhələsinin 3-cü turunda bu gün keçiriləcək "Napoli" ilə oyunu buraxa bilər.***

Qol.az legia.net-ə istinadən xəbər verir ki, Varşava təmsilçisinin baş məşqçisi Çeslav Mixneviç sözügedən matçda Mahirin əvəzinə 22 yaşlı Kasper Kostoja şans verməyi düşünür. Bildirilib ki, mütəxəssis millimizin futbolçusunun Polşa çempionatının 11-ci turunda "Lex"lə görüşdəki oyunundan (0:1) narazı qalıb. Ümumiyyətlə, Mixneviç Emrelinin çempionatdakı çıxışından razı deyil. 24 yaşlı hücumçu Neapoldakı matça ehtiyat oyunçular skamyasında başlaya bilər.

Qeyd edək ki, "Napoli" - "Legiya" oyunu Bakı vaxtı ilə 23:00-da başlayacaq.

# "Bavariya"nın baş məşqçisi koronavirusa yoluxdu

***"Bavariya"nın baş məşqçisi Yulian Naqelsmann peyvənd olunmasına baxmayaraq, koronavirusa yoluxub.***

Bu barədə klubun mətbuat xidmətinin saytı məlumat yayıb.

Karantində olan mütəxəssis tam sağalana qədər evdə qalacaq.

"Bavariya" dünən Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda səfərdə "Benfika"ya 4:0 hesabı ilə qalib gəlib.

Naqelsmannın Münhenə komandadan ayrı gedəcəyi bildirilib.

# "Qarabağ"ın oyununa biletlər tükənmək üzrədir

***"Qarabağ"ın Konfrans Liqasının qrup mərhələsinin 3-cü turunda evdə "Kayrat"la (Qazaxıstan) matçına bilet satışı davam edir.***

Klubun mətbuat xidmətindən verilən məlumata görə, oyun üçün satışda yalnız 300-dək VİP biletlər qalıb.

Xatırladaq ki, Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək oyuna koronavirus pandemiyası səbəbindən arenanın yalnız 50 faizi tutumunda azarkeş buraxılmasına icazə verilib. Mərkəzi arena 30 000 fanat qəbul edə bildiyindən, matç üçün təqribən 15 000 bilet satışa çıxarılıb.

Əlavə edək ki, bu gün keçiriləcək "Qarabağ" - "Kayrat" görüşü saat 20:45-də başlayacaq.

# "Barselona"dan azad agent kimi ayrılır

***"Barselona"nın futbolçusu Usman Dembele klubla müqaviləsini yeniləməyəcək.***

Qol.az goal.com-a istinadən xəbər verir ki, 24 yaşlı hücumçu növbəti yay transfer pəncərəsində komandadan ayrılacaq. O, "Nyukasl"a azad agent kimi keçməyi planlaşdırılır. Dembelenin İngiltərə klubunda illik 15 milyon avro + 5 milyon avro bonus məvacib alacağı bildirillib.

"Barselona" 2017-ci ildə "Borussiya"dan (Dortmund) 105 milyon avro + 40 milyon avro bonusa aldığı fransalı oyunçu ilə 2 illik yeni müqavilə imzalamaq istəsə də, futbolçu bunu qəbul etməyib.

Əlavə edək ki, Dembele bu mövsüm hələlik komandası ilə meydana çıxa bilməyib.